AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏRKƏZİ ELMİ KİTABXANA

*Görkəmli elm xadimləri*

# AKADEMİK
# MUSTAFA TOPÇUBAŞOV

***BİBLİOQRAFİYA***

*130 illiyinə həsr olunur*

**Bakı – Elm – 2025**

AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
CENTRAL SCIENTIFIC LIBRARY

*Distinguished scientists*

# ACADEMICIAN
# MUSTAFA TOPCHUBASHOV

***BIBLIOGRAPHY***

***Dedicated to the 130th Anniversary***

**Baku – Elm – 2025**

*Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 1 may 2025-ci il tarixli 12/6 saylı qərarı ilə çap olunur*

*UOT 61 (479.24) (092)*
*T67*

Elmi məsləhətçi və ön sözün müəllifi: *akademik* **İsa Həbibbəyli**

Elmi redaktor: *akademik* **İradə Hüseynova**

Tərtibçi: **Təranə Rüstəmova**
*baş biblioqraf*

Redaktorlar: **Hüseyn Hüseynov**
*texnika elmləri doktoru, dosent*

**Tubuxanım Qasımzadə**
*biologiya elmləri doktoru, dosent*

Akademik Mustafa Topçubaşov: biblioqrafiya: (Görkəmli elm xadimləri). – Bakı: Elm, 2025. – 256 s.

ISBN 978-9952-570-79-3

Göstərici Mustafa Ağabəy oğlu Topçubaşovun həyat və fəaliyyətinin əsas tarixlərini və elmi əsərlərinin biblioqrafiyasını əks etdirir. Biblioqrafik göstərici tibb sahəsində çalışan alim və mütəxəssislər, ali məktəb tələbələri, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

© AMEA Mərkəzi Elmi Kitabxanası, 2025
© “Elm” nəşriyyatı, 2025



“Mustafa bəy Topçubaşovun həyat yolu, yaradıcılığı, onun bizim üçün və gələcək nəsillər üçün qoyduğu irs milli sərvətimiz və milli iftixarımızdır”.

“O, nadir bir sima və nadir bir insan olmuşdur... Azərbaycan xalqının formalaşmasında, milli təfəkkürün inkişafında, xalqımızın ağır xəstəliklərdən qurtulmasında, elmimizin, təhsilimizin inkişaflarında böyük xidmətlər göstəribdir”.

**Heydər ƏLİYEV**
**Ümummilli Lider**



Akademik Mustafa Topçubaşov çoxşaxəli və dolğun fəaliyyəti ilə ziyalılığın parlaq nümunəsini yaratmış böyük nüfuza malik şəxsiyyətdir. O, Azərbaycan tibb elminə mühüm nailiyyətlər qazandırmış, tibb təhsili və səhiyyə sisteminin müasir əsaslar üzərində qurulması işinə misilsiz töhfələr vermişdir.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

## Akademik Mustafa Topçubaşovun 130 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2025-ci ilin avqust ayında Azərbaycan Respublikası Elmlər Akademiyasının təsisçilərindən biri, görkəmli alim və tanınmış ictimai xadim, tibb elmləri doktoru, SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Mustafa Ağabəy oğlu Topçubaşovun anadan olmasının 130 ili tamam olur.

Akademik Mustafa Topçubaşov çoxşaxəli və dolğun fəaliyyəti ilə ziyalılığın parlaq nümunəsini yaratmış böyük nüfuza malik şəxsiyyətdir. O, Azərbaycan tibb elminə mühüm nailiyyətlər qazandırmış, tibb təhsili və səhiyyə sisteminin müasir əsaslar üzərində qurulması işinə misilsiz töhfələr vermişdir. Mustafa Topçubaşov respublikada cərrahlıq elmi məktəbinin banilərindəndir. Təbabətin müxtəlif sahələri üzrə müalicə texnologiyalarının və cərrahi problemlərin kompleks şəkildə öyrənilməsi yenilikçi alimin fundamental araşdırmalarının başlıca istiqamətlərini təşkil etmişdir. Praktiki cərrahiyyədə geniş yayılmış orijinal müalicə üsullarının tətbiqi və beynəlxalq miqyasda

Azərbaycan cərrahiyyəsinin layiqincə təmsil olunması Mustafa Topçubaşovun adı ilə sıx bağlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda səhiyyənin və tibb elminin inkişafında xüsusi xidmətlərini nəzərə alaraq, akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illiyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə birlikdə akademik Mustafa Topçubaşovun 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 10 iyun 2025-ci il*

## Order of the President of the Republic of Azerbaijan on the celebration of the 130th Anniversary of Academician Mustafa Topchubashov

In August 2025, the 130th Anniversary of the birth of one of the founders of the Azerbaijan National Academy of Sciences, an outstanding scientist and renowned public figure, Doctor of Medical Sciences, Full Member of the USSR Academy of Medical Sciences, laureate of the USSR State Prize, Honored Scientist, and Academician Mustafa Aghabey oglu Topchubashov, will be celebrated.

Academician Mustafa Topchubashov was a highly influential figure who set an example of intellectual excellence with his multifaceted and profound activities. He made significant contributions to the development of Azerbaijani medical science and played an invaluable role in establishing the foundations of medical education and the healthcare system on modern principles. Mustafa Topchubashov was one of the founders of the scientific school of surgery in the republic. A comprehensive study of treatment technologies and surgical problems across various fields of medicine constituted the main areas of fundamental research of the innovative scientist. The application of original treatment methods widely used in

practical surgery and the worthy representation of Azerbaijani surgery at an international level are strongly associated with the name of Mustafa Topchubashov.

Guided by Item 32 of Article 109 of the Constitution of the Republic of Azerbaijan, in order to ensure the celebration of the 130th Anniversary of the birth of Academician Mustafa Topchubashov, who had exceptional merits in the development of healthcare and medical science in Azerbaijan, I hereby order:

1. The Azerbaijan National Academy of Sciences, together with the Ministry of Health of the Republic of Azerbaijan, shall prepare and implement a plan of events to celebrate the 130th Anniversary of the birth of Academician Mustafa Topchubashov.

2. The Cabinet of Ministers of the Republic of Azerbaijan shall resolve issues arising from this Order.

**Ilham ALIYEV**
**President of the Republic of Azerbaijan**

*Baku, June 10, 2025*

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

## QƏRAR

**№ 12/6**

**Bakı şəhəri** **1 may 2025-ci il**

Akademik Mustafa Topçubaşovun
130 illiyi haqqında

2025-ci il avqustun 5-də tibb elmi sahəsində görkəmli alim, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Mustafa Ağabəy oğlu Topçubaşovun anadan olmasının 130 ili tamam olur.

Mustafa Topçubaşov 1895-ci ildə Qərbi Azərbaycanın İrəvan şəhərində anadan olmuşdur. 1919-cu ildə Kiyev Universitetinin Tibb fakültəsini bitirmiş, 1926-cı ildə Almaniyada elmi ezamiyyətdə olmuş, 1930-cu ildə "Malyariya splenomeqaliyasının klinikası, patogenezi və cərrahi müalicəsi" mövzusunda tibb elmləri üzrə doktorluq dissertasiyası müdafiə etmiş və həmin ildə professor elmi adı almışdır.

Alim Azərbaycan SSR Elmlər Akademiyasının ilk 15 təsisçilərindəndir. O, Azərbaycan SSR EA-nın həqiqi üzvü (1945), SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü (1948), həqiqi üzvü (1960), Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü (1952) seçilmişdir.

Mustafa Topçubaşov Azərbaycan Dövlət Tibb İnstitutunun Fakültətiv cərrahiyyə kafedrasının müdiri (1930-1981), Azərbaycan Eksperimental Təbabət İnstitutunun direktoru (1947-1949), Azərbaycan SSR EA Biologiya Elmləri Bölməsinin akademik-katibi (1945-1951), Azərbaycan SSR EA-nın vitse-prezidenti (1951-1956, 1959-1981) vəzifələrində çalışmışdır.

Akademik Mustafa Topçubaşovun Azərbaycan tibb elminin, xüsusilə də cərrahiyyəsinin nailiyyətlərinin beynəlxalq miqyasda tanınmasında əvəzsiz xidmətləri vardır. Alimin elmi fəaliyyətinin əsas istiqamətini malyariya splenomeqaliyalarının patogenezi, klinikası və cərrahi müalicəsinin işlənib hazırlanması, sürəkli analgeziya ilə amneziya halının tətbiq edilməsi, kəllə sümükləri qüsurları zamanı kranioplastikanın tətbiqi, orqanizmdə yad cisimlərin lokalizasiyasını müəyyənləşdirmək və çıxarmaq üsullarının texnologiyaları, neyrocərrahiyyə, travmatologiya, urologiya sahələrində bir sıra üsulların işlənib hazırlanması, qaraciyər və öd yollarının cərrahi problemlərinin kompleks şəkildə öyrənilməsi, antetorakal ezofaqoplastika, süni anus-yaratma əməliyyatlarının, qabırğaaltı sahələrdə yerləşən orqanlara operativ yolaçma üsullarının – abdominodiafraqmal kəsiyin işlənib hazırlanması və s. təşkil etmişdir.

Mustafa Topçubaşov 300-dən artıq elmi əsərin, o cümlədən 5 cildlik "Xüsusi cərrahiyyə" kitabının, 8 monoqrafi-

yanın, kəşf və ixtiraların müəllifi olmuşdur. Alim çoxsaylı beynəlxalq qurultay, simpozium, konfrans və konqreslərdə çıxışlar etmişdir.

Mustafa Topçubaşovun elmi rəhbərliyi və məsləhətçiliyi ilə 32 elmlər namizədi və 12 elmlər doktoru hazırlanmışdır.

Mustafa Topçubaşov Respublika Ali Sovetinə deputat (I-X çağırışlar) seçilmiş, Azərbaycan SSR Ali Sovetinin sədri (1953-1955, 1967-1971), Ümumittifaq Sülhü Müdafiə Komitəsinin üzvü, Respublika Sülhü Müdafiə Komitəsinin sədri, Asiya və Afrika ölkələri xalqları ilə Dostluq komitəsinin üzvü, "Böyük Tibb Ensiklopediyası"nın baş redaksiya heyətinin üzvü olmuşdur.

Mustafa Topçubaşov Əməkdar elm xadimi fəxri adına (1940), Stalin mükafatına (1943), SSRİ Tibb Elmləri Akademiyasının A.Vişnevski adına mükafatına (1963), "Sosialist Əməyi Qəhrəmanı" fəxri adına (1975) layiq görülmüş, 4 dəfə "Lenin", "Qırmızı Əmək Bayrağı", "Qırmızı Ulduz" ordenləri, Bolqarıstan Xalq Respublikasının I dərəcəli "Kiril və Mefodi", "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbə" medalları ilə təltif edilmişdir. Bakı şəhərindəki küçələrdən biri və Elmi Cərrahiyyə Mərkəzi Mustafa Topçubaşovun adını daşıyır. Azərbaycan Tibb Universitetində alimə həsr olunmuş muzey fəaliyyət göstərir.

AMEA-nın həqiqi üzvü Mustafa Ağabəy oğlu Topçubaşovun elmi və elmi-təşkilati fəaliyyətini və anadan olmasının 130 illiyini nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA Rəyasət Heyətinin akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilsin.

2. Akademik Mustafa Topçubaşovun 130 illik yubileyinin qeyd olunması ilə bağlı müvafiq dövlət orqanları qarşısında vəsatət qaldırılsın.

3. AMEA-nın Mərkəzi Elmi Kitabxanasına (texnika elmləri doktoru, dosent Hüseyn Hüseynov) və "Elm" Nəşriyyatına (filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov) tapşırılsın ki, akademik Mustafa Topçubaşovun biblioqrafiyasının hazırlanıb nəşr olunması təmin edilsin.

4. AMEA-nın Mərkəzi Elmi Kitabxanasına (texnika elmləri doktoru, dosent Hüseyn Hüseynov) tapşırılsın ki, akademik Mustafa Topçubaşovun elmi əsərləri rəqəmsallaşdırılıb elektron bazaya daxil edilsin.

5. AMEA Rəyasət Heyəti Aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinə (filologiya üzrə fəlsəfə doktoru, dosent Ağahüseyn Şükürov) tapşırılsın ki, akademik Mustafa Topçubaşovun elmi və elmi-təşkilati fəaliyyətinə həsr olunmuş materialların kütləvi informasiya vasitələrində işıqlandırılması təmin edilsin.

6. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynovaya həvalə edilsin.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli

**PRESIDIUM OF THE NATIONAL ACADEMY OF SCIENCES OF AZERBAIJAN**

**ORDER**

**№ 12/6**

**Baku** **May 1, 2025**

On the 130th Anniversary of Academician
Mustafa Topchubashov

August 5, 2025, marks the 130th Anniversary of the birth of Mustafa Aghabey oglu Topchubashov, a prominent scientist in the field of medical science, Honored Scientist, Doctor of Medical Sciences, Professor, Full Member of the Azerbaijan National Academy of Sciences.

Mustafa Topchubashov was born in 1895 in the Irevan city, Western Azerbaijan. He graduated from the Medical Faculty of Kiev University in 1919, went on a scientific mission to Germany in 1926, defended his doctoral dissertation in medical sciences on the topic "Clinical Profile, Pathology, and Surgical Treatment of Malarial Splenomegaly" in 1930 and received the scientific title of professor in the same year.

The scientist is one of the first 15 founders of the Academy of Sciences of the Azerbaijan SSR. He was elected a Full Member of the Academy of Sciences of the Azerbaijan SSR (1945), a Corresponding Member of the Academy of Medical Sciences of the USSR (1948), a Full Member (1960), and a Corresponding Member of the Bulgarian Academy of Sciences (1952).

Mustafa Topchubashov served as the head of the Department of Facultative Surgery of the Azerbaijan State Medical Institute (1930-1981), director of the Azerbaijan Institute of Experimental Medicine (1947-1949), Academician-Secretary of the Division of Biological Sciences of the Academy of Sciences of the Azerbaijan SSR (1945-1951), and Vice-president of the Academy of Sciences of the Azerbaijan SSR (1951-1956, 1959-1981). Academician Mustafa Topchubashov has made invaluable contributions to the international recognition of the achievements of Azerbaijani medical science, especially surgery. The main directions of the scientist's scientific activity were the development of the pathogenesis, clinic and surgical treatment of malarial splenomegaly, the application of amnesia with prolonged analgesia, the application of cranioplasty in cases of skull defects, technologies for determining the localization and removal of foreign bodies in the body, the development of a number of methods in the fields of neurosurgery, traumatology, urology, a comprehensive study of surgical problems of the liver and biliary tract, antethoracic esophagoplasty,

artificial anus creation operations, the development of methods for operative access to organs located in the subcostal areas - abdominodiaphragmatic incision, etc.

Mustafa Topchubashov was the author of more than 300 scientific works, including the 5-volume book "Special Surgery", 8 monographs, discoveries and inventions. The scientist made speeches at numerous international congresses, symposiums, conferences and congresses.

Under the scientific guidance and advice of Mustafa Topchubashov, 32 candidates of sciences and 12 doctors of sciences were prepared.

Mustafa Topchubashov was elected a deputy to the Supreme Soviet of the Republic (I-X convocations), Chairman of the Supreme Soviet of the Azerbaijan SSR (1953-1955, 1967-1971), a member of the All-Union Peace Defense Committee, Chairman of the Republican Peace Defense Committee, a member of the Committee for Friendship with the Peoples of Asian and African Countries, and a member of the editorial board of the "Great Medical Encyclopedia".

Mustafa Topchubashov was awarded the honorary title of Honored Scientist (1940), the Stalin Prize (1943), the A.Vishnevsky Prize of the USSR Academy of Medical Sciences (1963), the honorary title of "Hero of Socialist Labor" (1975), 4 times the Orders of "Lenin", "Red Banner of Labour ", "Red Star", medals of the People's Republic of Bulgaria "Saints Cyril and Methodius" of the 1st degree, "For the Defense of the Caucasus", "For the Victory over

Germany". One of the streets in Baku and the Scientific Surgery Center are named after Mustafa Topchubashov. A museum dedicated to the scientist operates at the Azerbaijan Medical University.

Taking into account the scientific and scientific-organizational activities of Mustafa Aghabey oglu Topchubashov, a Full Member of ANAS, and the 130th Anniversary of his birth, the Presidium of the Azerbaijan National Academy of Sciences DECIDES:

1. To hold an anniversary event of the Presidium of ANAS dedicated to the 130th Anniversary of the birth of Academician Mustafa Topchubashov.

2. To submit a petition to the relevant state bodies regarding the celebration of the 130th Anniversary of Academician Mustafa Topchubashov.

3. To instruct the Central Scientific Library of ANAS (Doctor of Technical Sciences, Associate Professor Huseyn Huseynov) and the "Elm" Publishing House (Doctor of Philosophy in Philology Sabuhi Gahramanov) to prepare and publish the bibliography of Academician Mustafa Topchubashov.

4. The Central Scientific Library of ANAS (Doctor of Technical Sciences, Associate Professor Huseyn Huseynov) shall be instructed to digitize and include in the electronic database the scientific works of Academician Mustafa Topchubashov.

5. The Public Relations, Press and Information Department of the Presidium of ANAS (Doctor of Philosophy in

Philology, Associate Professor Aghahuseyin Shukurov) shall be instructed to ensure that materials dedicated to the scientific and scientific-organizational activities of Academician Mustafa Topchubashov are covered in the mass media.

6. Control over the implementation of the decision shall be entrusted to the Vice-president of ANAS.

**Academician Isa HABIBBAYLI**
*President of ANAS*

# AZƏRBAYCAN TƏBABƏTİNİN ƏFSANƏSİ

## ÖN SÖZ

Azərbaycan tibb elminin böyük tarixi və görkəmli simaları olsa da, bu elm sahəsi əsasən XX əsrdə sistemli şəkildə formalaşmış, müstəqil və geniş bir istiqamətə çevrilmişdir. Ölkəmizdə elmi məktəb yaratmış görkəmli tibb alimləri arasında məşhur həkim, böyük alim və elm təşkilatçısı, Azərbaycan cərrahiyyə məktəbinin banisi, tanınmış ictimai xadim akademik Mustafa Topçubaşovun (1895-1981) xüsusi yeri vardır. Akademik Mustafa Topçubaşov tibb elminin inkişafı yollarında xüsusi xidmətlər göstərmiş, həm peşəkar fəaliyyəti, həm də ziyalı mövqeyi ilə xalqımızın yaddaşında dərin izlər buraxmışdır. Təsadüfi deyildir ki, sovet hakimiyyətinin prinsiplərinə zidd olmasına baxmayaraq, ona cəmiyyətdə hörmət əlaməti olaraq Mustafa bəy deyə müraciət etmişlər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev görkəmli alimin xidmətlərinə və şəxsiyyətinə yüksək qiymət vermişdir. Akademik Mustafa bəy Topçubaşovun anadan olmasının 100 illik yubileyinə həsr edilmiş təntənəli tədbirdə görkəmli dövlət xadimi onun çoxcəhətli fəaliyyətini və xidmətlərini yüksək dəyərləndirərək demişdir: "Mustafa bəy Topçubaşov nadir bir sima və nadir bir insan olmuşdur. Azərbaycan xalqının formalaşmasında, milli təfəkkürün inkişafında, xalqımızın ağır xəstəliklərdən qurtarmasında, elmimizin, təhsilimizin inkişafında böyük xidmətlər göstəribdir… O, böyük bir məktəb – cərrahlıq məktəbi, təbiblər məktəbi, alimlər məktəbi yaradıbdır… O insanda

mən həmişə nuranilik, alicənablıq, yüksək ziyalılıq gördüm. Bəzən mənə elə gəlirdi ki, Mustafa bəy Topçubaşov anadan ziyalı kimi doğulub… Mustafa bəy Topçubaşovun həyatı, yaradıcılığı, qoyduğu irs böyük təcrübə mənbəyidir, böyük mənəviyyat məktəbidir… Onun adı Azərbaycanın gələcək nəsilləri üçün də örnək olaraq, daim yaşayacaqdır".

Mustafa bəy Ağabəy oğlu Topçubaşov 1895-ci ildə Qərbi Azərbaycanın İrəvan şəhərində anadan olmuşdur. O, gimnaziyanı bitirdikdən sonra 1914-1919-cu illərdə Kiyevdə Tibb Universitetində ali təhsil alaraq, həkim ixtisasına yiyələnmişdir. Elmə böyük maraq göstərən Mustafa bəy Bakı Universitetinin Tibb fakültəsinin Cərrahiyyə kafedrasında 1919-1922-ci illərdə ordinator, 1928-1930-cu illərdə assistent işləmişdir.

M.Topçubaşov 1930-cu ildə "Malyariya mənşəli splenomeqaliyanın klinikası, patologiyası və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, az sonra professor elmi adını almışdır. O, Azərbaycan Dövlət Tibb İnstitutunun Cərrahiyyə kafedrasının müdiri seçilərək, ömrünün sonuna qədər həmin vəzifəni şərəflə yerinə yetirmişdir.

Mustafa bəy Topçubaşov 1937-ci ildə dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq "analgeziya" adlı orijinal keyitmə üsulunu kəşf etmişdir. Sadəliyinə və tətbiq edilməsinin asanlığına, narkoz zamanı rast gəlinən bir sıra mənfi halların aradan qaldırılmasına imkan verdiyinə görə bu metod təbabətdə uğurla sınaqdan keçirilmiş və geniş tətbiq edilmişdir. SSRİ Xalq Səhiyyə Komissarlığı Elmi Tibbi Şurası Mustafa bəy Topçubaşovun ixtirasının "Analgezin" adı altında istehsal edilməsinə icazə vermişdir.

Alim Sovetlər İttifaqında geniş yayılmış bu ixtiraya görə 1963-cü ildə akademik A.V.Vişnevski adına xatirə medalı ilə təltif olunmuşdur.

Mustafa bəy Topçubaşovun Böyük Vətən müharibəsi illərində cəbhədə yaralanmış əsgər və zabitlərin bədənində qalmış qəlpələrin rentgensiz aşkar olunması üçün ixtira etdiyi tibbi cihaz hərbi səhra şəraitində müalicə işlərinin aparılmasında çox böyük fayda vermişdir. Onun bu ixtirası beynəlxalq aləmdə maraqla qarşılanmış, Azərbaycan aliminə dünya şöhrəti qazandırmışdır. Bundan başqa, Mustafa bəy Topçubaşov müharibə dövründə arxa cəbhə kimi Bakı şəhərinə göndərilmiş minlərlə yaralını cərrahiyyə əməliyyatları ilə həyata qaytarmışdır. Böyük Vətən müharibəsində əldə olunan qələbədəki xidmətləri nəzərə alınaraq, Mustafa bəy Topçubaşov "Qızıl Ulduz" ordeni, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalları ilə təltif olunmuşdur. Eyni zamanda, alimin ixtiraları Beynəlxalq Nobel mükafatına təqdim edilmişdir.

M.Topçubaşovun adı 1945-ci ildə yaradılmış Azərbaycan Elmlər Akademiyası ilə üzvi surətdə bağlıdır. O, həmin ildə Akademiyaya həqiqi üzv seçilmiş 15 görkəmli alimdən biri olmuşdur. Akademik Mustafa bəy Topçubaşov uzun illər Azərbaycan EA-da akademik-katib, vitse-prezident vəzifələrində çalışmış, öz elmi məktəbini yaratmış, yeni alim nəsillərinin yetişməsində mühüm xidmətlər göstərmişdir. Görkəmli alim 1948-ci ildə SSRİ Tibb Akademiyasının müxbir üzvü, 1960-cı ildə isə həqiqi üzvü seçilmişdir.

Çoxcəhətli elmi fəaliyyətə malik olan akademik Mustafa bəy Topçubaşov 300 elmi əsərin, 8 monoqrafiyanın,

cərrahlığa dair 5 cildlik dərsliyin müəllifidir. Bir neçə dəfə təkrar nəşr olunmuş "Tətbiqi cərrahlıq" dərsliyindən Azərbaycan Tibb Universitetində indi də istifadə olunur. Mustafa Topçubaşov ardıcıl elmi və praktiki fəaliyyətlə yanaşı, tibb üzrə kadrların hazırlanması sahəsində də mühüm xidmətlər göstərmişdir. Görkəmli alimin elmi rəhbərliyi və məsləhətçiliyi ilə 40-dan çox namizədlik və doktorluq dissertasiyası müdafiə edilmişdir.

Akademik Mustafa bəy Topçubaşov 1952-ci ildə Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü, 1954-cü ildə XI Lissabon Konqresində Ümumdünya Cərrahlar Assosiasiyasının üzvü seçilmişdir. O həm də Ümumittifaq Cərrahlar Cəmiyyətinin üzvü, Vişnevski adına Cərrahlar Cəmiyyətinin fəxri üzvü, "Böyük Tibb Ensiklopediyası"nın redaktorlarından biri, "Abdominal cərrahiyə" jurnalının redaktoru kimi qeyd edilən nüfuzlu qurumlarda ölkəmizi yüksək ləyaqətlə təmsil etmişdir.

Akademik Mustafa bəy Topçubaşov Azərbaycanın XX əsr tarixinə həm də tanınmış və fəal ictimai xadim kimi daxil olmuşdur. O, uzun illər respublika Sülhü Müdafiə Komitəsinin sədri, Asiya, Afrika və Latın Amerikası ölkələri ilə Dostluq Komitəsinin üzvü olmuş, bu sahədəki məhsuldar fəaliyyətinə görə 1959-cu ildə Ümumdünya Sülh Şurasının gümüş medalına layiq görülmüşdür.

Mustafa bəy Topçubaşov Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, iki çağırış Azərbaycan SSR Ali Sovetinə sədrlik etmişdir.

Ümummilli Lider Heydər Əliyevin Sovet Azərbaycanının rəhbəri kimi təqdimatı ilə akademik Mustafa bəy Topçubaşov 1975-ci ildə yüksək mükafata – Sosialist Əmə-

yi Qəhrəmanı fəxri adına layiq görülmüşdür. Böyük alim dörd dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri, döyüş orden və medalları, Bolqarıstanın I dərəcəli "Kirill və Mefodi" ordeni, eyni zamanda, "SSRİ Sanitar Müdafiəsi" fəxri adı və "SSRİ Sanitar Müdafiəsi Əlaçısı" döş nişanı ilə təltif olunmuşdur. O, 1940-cı ildə Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, 1943-cü ildə Stalin (Dövlət) mükafatı almışdır.

Akademik Mustafa bəy Topçubaşov 1981-ci il noyabr ayının 20-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Akademik Mustafa bəy Topçubaşovun adı əbədiləşdirilmişdir. Görkəmli elm xadiminin anadan olmasının 100 illik yubileyi ölkəmizdə dövlət səviyyəsində qeyd olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 iyun 2025-ci il tarixində "Akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illiyinin qeyd olunması haqqında" imzaladığı Sərəncam müstəqil dövlətimizin görkəmli elm xadiminin xidmətlərinə yüksək ehtiramının əməli ifadəsidir. Azərbaycan elminin və təbabətinin inkişafına böyük töhfələr vermiş akademik Mustafa bəy Topçubaşovun parlaq xatirəsi və əməlləri yeni nəsillər üçün əsl örnəkdir.

Akademik Mustafa bəy Topçubaşov Azərbaycan təbabətinin əfsanəsidir.

**İsa HƏBİBBƏYLİ**

*AMEA-nın prezidenti, akademik*

## LEGEND OF AZERBAIJANI MEDICINE

## FOREWORD

Although Azerbaijani medical science has a rich history and prominent figures, this field of science was mainly systematically formed in the 20th century, becoming an independent and broad field. Among the outstanding medical scientists who established a scientific school in our country, a special place belongs to the renowned physician, prominent scientist and organizer of science, founder of the Azerbaijani surgical school, and well-known public figure, Academician Mustafa Topchubashov (1895-1981). Academician Mustafa Topchubashov made a significant contribution to the development of medical science, leaving a deep imprint on the memory of our people with his professional activities and intellectual stance. It is no coincidence that, despite the fact that it contradicted the principles of the Soviet government, he was addressed as Mustafa bey as a sign of respect in society.

National Leader of the Azerbaijani people Heydar Aliyev highly appreciated the merits and personality of the outstanding scientist. At a ceremony dedicated to the 100th Anniversary of the birth of Academician Mustafa bey Topchubashov, the prominent statesman, praising his multifaceted activities and services, said: "Mustafa bey Topchubashov was a rare figure and a rare person. He has rendered great services in the formation of the Azerbaijani people, in the development of national thinking, in the

healing of our people from serious illnesses, in the development of our science and education… He created a great school – a surgical school, a medical school, a school of scientists... I always saw enlightenment, nobility, and high intelligence in that person. Sometimes it seemed to me that Mustafa bey Topchubashov was born an intellectual... The life, work, and legacy of Mustafa bey Topchubashov are a great source of experience, a great school of morality... His name will forever live as an example for future generations of Azerbaijan".

Mustafa bey Aghabey oglu Topchubashov was born in 1895 in the city of Irevan in Western Azerbaijan. After graduating from high school, he received his higher education at the Kiev Medical University from 1914 to 1919 and became a physician. Showing a keen interest in science, Mustafa bey worked as a resident in the Department of Surgery at the Faculty of Medicine at Baku University from 1919 to 1922, and as an assistant from 1928 to 1930.

In 1930, M.Topchubashov defended his doctoral dissertation on the topic "Clinical Profile, Pathology, and Surgical Treatment of Malarial Splenomegaly" and soon received the academic title of professor. He was elected head of the Department of Surgery at the Azerbaijan State Medical Institute and honorably held this position until the end of his life.

In 1937, Mustafa Topchubashov discovered the original anesthesia method called "analgesia" for the first time in the history of world anesthesiology. Due to its simplicity and ease of use, as well as its ability to eliminate

a number of anesthesia-related side effects, this method was successfully tested in medicine and became widely used. The Scientific Medical Council of the USSR People's Commissariat of Health authorized the production of Mustafa bey Topchubashov's invention under the name “Analgesin”. For this invention, which was widespread in the Soviet Union, the scientist was awarded the Commemorative Medal named after Academician A.V.Vishnevsky in 1963.

The medical device invented by Mustafa bey Topchubashov for the detection of shrapnel in the bodies of soldiers and officers wounded at the front without X-rays during the Great Patriotic War was of great benefit in carrying out treatment in military field conditions. His invention was met with interest in the international community and brought the Azerbaijani scientist world-wide fame. Furthermore, Mustafa Bey Topchubashov surgically revived thousands of wounded soldiers sent to Baku as a rearguard during the war. Considering his services in the victory achieved in the Great Patriotic War, Mustafa bey Topchubashov was awarded the Order of the “Golden Star”, medals “For the Defense of the Caucasus”, “For the Victory over Germany”, and “For Valiant Labor in the Great Patriotic War of 1941-1945”. At the same time, the scientist's inventions were nominated for the International Nobel Prize.

The name of M.Topchubashov is inextricably linked with the Azerbaijan Academy of Sciences, established in 1945. He was one of the 15 outstanding scientists elected as Full Members of the Academy that year. Academician

Mustafa bey Topchubashov worked for many years as an Academician-Secretary and Vice-President of the Azerbaijan Academy of Sciences, establishing his own scientific school and making significant contributions to the education of new generations of scientists. The outstanding scientist was elected a Corresponding Member of the USSR Academy of Medicine in 1948, and a Full Member in 1960.

Academician Mustafa Bey Topchubashov, who has a wide range of scientific activities, is the author of 300 scientific works, 8 monographs, and a 5-volume book on surgery. The book “Special Surgery” which has been reprinted several times, is still used at the Azerbaijan Medical University. Along with his consistent scientific and practical activities, Mustafa Topchubashov also made significant contributions to the training of medical personnel. Under the scientific guidance and advice of the outstanding scientist, more than 40 candidate and doctoral dissertations have been defended.

Academician Mustafa bey Topchubashov was elected a Corresponding Member of the Bulgarian Academy of Sciences in 1952, and a member of the World Association of Surgeons at the XI Lisbon Congress in 1954. He also represented our country with high dignity in prestigious organizations, being a member of the All-Union Society of Surgeons, an honorary member of the Vishnevsky Society of Surgeons, one of the editors of the “Great Medical Encyclopedia” and the editor of the journal “Abdominal Surgery”.

Academician Mustafa bey Topchubashov entered the history of 20th-century Azerbaijan as a renowned and active public figure. For many years, he served as Chairman of the Republican Peace Defense Committee and as a member of the Friendship Committee with the countries of Asia, Africa, and Latin America, and in 1959, he was awarded the Silver Medal of the World Peace Council for his fruitful activities in this field.

Mustafa bey Topchubashov was elected a deputy to the Supreme Soviet of the Azerbaijan SSR, and chaired the Supreme Soviet of the Azerbaijan SSR for two terms.

Upon the recommendation of the National Leader Heydar Aliyev as the head of Soviet Azerbaijan, Academician Mustafa bey Topchubashov was awarded a high award - the honorary title of Hero of Socialist Labor in 1975. The great scientist was awarded the Order of Lenin four times, the Order of the "Red Banner of Labour", the "Badge of Honor" orders, military orders and medals, the Order of "Saints Cyril and Methodius" of the 1st degree of Bulgaria, as well as the honorary title of "Sanitary Defense of the USSR" and the badge "Excellent Worker of Sanitary Defense of the USSR". In 1940, he was awarded the honorary title of Honored Scientist of the Republic of Azerbaijan, and in 1943 he received the Stalin (State) Prize.

Academician Mustafa bey Topchubashov died on November 20, 1981 in Baku and was buried in the Alley of Honor.

The name of Academician Mustafa bey Topchubashov has been immortalized. The 100th Anniversary of the birth of the outstanding scientist was celebrated at the state

level in our country. The Order of the President of the Republic of Azerbaijan Ilham Aliyev "On marking the 130th Anniversary of the birth of Academician Mustafa Topchubashov" signed on June 10, 2025 is a practical expression of the high respect of our independent state for the services of the outstanding scientist. The bright memory and deeds of Academician Mustafa bey Topchubashov, who made great contributions to the development of Azerbaijani science and medicine, serve as a true role model for new generations.

Academician Mustafa bey Topchubashov is a legend of Azerbaijani medicine.

**Isa HABIBBAYLI**
*President of ANAS, Academician*

## AKADEMİK MUSTAFA TOPÇUBAŞOVUN HƏYATI, ELMİ, ELMİ-TƏŞKİLATİ, HƏKİMLİK, PEDAQOJİ VƏ İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ HAQQINDA

## QISA OÇERK

Azərbaycanın elm və səhiyyə tarixinin silinməz səhifələrinə həkk olunmuş, xalqın intibahında mühüm rol oynamış şəxsiyyətlərdən biri də görkəmli alim və ictimai xadim, tibb elmləri doktoru, SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Mustafa bəy Ağabəy oğlu Topçubaşovdur.

Mustafa Topçubaşov fundamental və tətbiqi tibbi tədqiqatları, elmi kəşfləri ilə Azərbaycan tibb elminin inkişafında yeni səhifə açmış, müasir səhiyyə sisteminin əsaslarını möhkəmləndirərək xalqın rifahına əhəmiyyətli töhfələr vermişdir. Topçubaşov akademik düşüncə ilə realist həyat baxışlarını, humanizm prinsipləri ilə təşkilati bacarıqlarını birləşdirərək, cəmiyyətin sosial sağlamlıq institutlarının formalaşdırılmasında mühüm rol oynamışdır. SSRİ Tibb Elmləri Akademiyasının və Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı kimi o öz elmi nüfuzunu milli inkişaf strategiyasının xidmətinə yönəltməyə nail olmuşdur.

Akademikin nəzəri və praktiki fəaliyyəti həm elmi strukturlaşdırma, yeni nəsil kadrların hazırlanması, həm də xəstəliklərə qarşı sistemli mübarizə metodlarının işlə-

nib hazırlanması ilə yadda qalmışdır. Onun rəhbərlik etdiyi qurumlar Azərbaycan tibb elminin və səhiyyəsinin dayaqlarına çevrilmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qeyd etdiyi kimi, Mustafa Topçubaşovun elmi və mənəvi irsi milli sərvət və iftixar mənbəyidir. Onun bütün həyatı, davranışı, insanlara, xüsusilə tibbi yardıma ehtiyacı olanlara münasibəti, vətəndaş əxlaqı humanizm prinsiplərinin təntənəsi kimi dəyərləndirilə bilər.

Akademik Mustafa Topçubaşovun həyatı və fəaliyyəti yalnız yaşadığı dövr üçün deyil, həm də gələcək nəsillərin sağlamlığına dəstək, elmi ideallarına isə ilham mənbəyi olaraq qiymətləndirilir. Bu səbəbdəndir ki, böyük alim və elm təşkilatçısının xatirəsi, onun elmi irsi və əməlləri zaman keçdikcə unudulmamış, əksinə, daha çox dəyər qazanmış, yubileyləri isə hər zaman yüksək səviyyədə qeyd olunmuşdur.

Bu il də istisna deyildir: Azərbaycan Respublikası Prezidentinin 10 iyun 2025-ci il tarixli Sərəncamına əsasən, akademik Mustafa Ağabəy oğlu Topçubaşovun anadan olmasının 130 illiyi ölkə səviyyəsində geniş şəkildə qeyd olunur. Sərəncamda deyilir: “O, Azərbaycan tibb elminə mühüm nailiyyətlər qazandırmış, tibb təhsili və səhiyyə sisteminin müasir əsaslar üzərində qurulması işinə misilsiz töhfələr vermişdir. Mustafa Topçubaşov respublikada cərrahlıq elmi məktəbinin banilərindəndir.... Praktiki cərrahiyyədə geniş yayılmış orijinal müalicə üsullarının tətbiqi və beynəlxalq miqyasda Azərbaycan cərrahiyyəsinin la-

yiqincə təmsil olunması Mustafa Topçubaşovun adı ilə sıx bağlıdır".

Hazırkı oçerkdə biz böyük alimin ömür yoluna, zəngin elmi yaradıcılığına və tarixi missiyasına nəzər salacaq, onun gələcək nəsillərə ötürdüyü çoxşaxəli irsi müasir müstəqil və suveren Azərbaycançılıq işığında bir daha təhlil etməyə çalışacağıq.

Akademik Mustafa Topçubaşov 1895-ci il avqustun 5-də Qərbi Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən biri olan qədim İrəvan şəhərində anadan olmuş, ibtidai təhsilini tanınmış Azərbaycan rəssamı Mirzə Qədim İrəvaninin nəvəsi Mirzə Rza Qədimovun açdığı ibtidai məktəbdə almışdır. Daha sonra Azərbaycan tarixinə görkəmli dövlət və elm xadimi Əziz Əliyev kimi şəxsiyyətlər vermiş rusdilli Kişi gimnaziyasında təhsilini davam etdirərək 1914-cü ildə qızıl medalla başa vurduqdan sonra, bir daha geri dönə bilməyəcəyi doğma evindən ayrılaraq Ukraynaya getmiş, burada Kiyev Universitetinin Tibb fakültəsinə daxil olmuşdur.

Gənc Mustafa bəy universitetdə dövrün qabaqcıl alim və pedaqoqlarından, müasir cərrahiyyənin banilərindən dərs alaraq elmi dünyagörüşünü formalaşdırmış, tibb elminin fundamental biliklərinə yiyələnmiş və XX əsrin qarşıya qoyduğu mürəkkəb sağlamlıq problemlərinə cavab axtarışını həyat məqsədinə çevirmişdir.

1919-cu ildə ali təhsilini başa vuran Mustafa Topçubaşov yenicə istiqlaliyyət qazanmış Vətənə – ciddi səhiyyə çağırışları ilə üzləşən Azərbaycana dönərək, Bakı Univer-

sitetinin Tibb fakültəsinin Cərrahiyyə kafedrasının klinikasında ordinator kimi fəaliyyətə başlamış, fakültənin dekanı professor İvan İvanoviç Şirokoqorovun, Cərrahiyyə kafedrasının müdiri Arkadi Aleksandroviç Oşmanın və universitetin rektoru, görkəmli cərrah-anatom professor Vasili İvanoviç Razumovskinin elmi-metodoloji dəstəyi ilə öz inkişafını davam etdirmişdir. Mustafa Topçubaşov həmin şəxslərin rəhbərliyi altında gərgin tədris və təcrübə mühitində çalışaraq yeni tibbi texnikaları mənimsəmiş, peşəkar cərrah kimi formalaşmasının əsasını qoymuşdur. Sonralar Mustafa bəy A.Oşmanı "özünün ikinci universiteti" adlandırırdı.

Qeyd edilməlidir ki, professor A.Oşman 1919-1930-cu illərdə Bakı Universitetində (1922-ci ildən Azərbaycan Dövlət Universiteti) mövcud olan və sonradan Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinin Cərrahiyyə kafedrası (indiki III Cərrahi Xəstəliklər kafedrası) adlandırılan strukturun ilk rəhbəri olmuşdur.

Mustafa Topçubaşov 1922-ci ildə Nəriman Nərimanovun təklifi ilə Naxçıvana göndərilərək, orada xəstəxana, ambulatoriya, Ordubadda feldşer məntəqələri təşkil etmişdir. Mustafa bəy ilk rəsmi cərrahiyyə əməliyyatını Naxçıvanda etmişdir. Akademik sonralar xatirələrində həmin dövrü belə təsvir edirdi: "İş vaxtımın başlanğıcı və sonu yox idi. Gündüzün və gecənin nə vaxtı olursa-olsun xəstə gətirirdilər, yaxud xəstə üstə çağırırdılar. Mən həm terapevt, həm cərrah, həm nevropatoloq, həm epidemioloq, həm vərəm həkimi, həm yoluxucu xəstəliklər həki-

mi... işləyirdim. Həkimsən, demək loğmansan, bütün dərdlərə əlac qılmalısan".

Mustafa Topçubaşov 1923-cü ildə Bakıya qaytarılaraq professor A.Oşmanın təqdimatı ilə əsasən neftçilərə xidmət edən və Bayılda yerləşən Paster adına xəstəxananın Cərrahiyyə şöbəsinin, Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı Cərrahiyyə Klinikasının müdiri təyin edilmiş, tez-tez rayonlara gedərək, yerlərdə cərrahi şöbələr təşkil etmiş, ambulatoriya və stasionaraqədərki cərrahi yardımın mexanizmini qurmuş, əhaliyə birbaşa tibbi yardımlar göstərmişdir. O, 2028-2030-cu illərdə Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinin Cərrahiyyə klinikasında assistent kimi fəaliyyətini davam etdirmiş, eyni zamanda Semaşko adına xəstəxananın 11-ci Cərrahiyyə korpusuna rəhbərlik etmişdir.

Sovet hakimiyyətinin ilk illərində səpgili yatalaq, qarın yatalağı, malyariya, traxoma kimi infeksion xəstəliklər əhali üçün ciddi təhlükə törədirdi. Bunu nəzərə alaraq, 1925-ci ilin iyul ayında Azərbaycan hökuməti "Azərbaycan SSR-də qızdırmaya qarşı mübarizə" haqqında qərar qəbul etmişdir. Bundan sonra problemi dərinliyinə qədər dərk edən Mustafa Topçubaşov elmi-tədqiqat işlərini malyariyanın klinikası, patogenezi və profilaktikası məsələlərinə yönəltmişdir.

1926-cı ildə Azərbaycan Xalq Maarif Komissarlığının tibbi təcrübə keçmək üçün Almaniyaya göndərdiyi həkimlərin sırasında gələcəyin akademiklərindən Mirəsədulla Mirqasımov və Mustafa Topçubaşov da olmuşlar. Berlin,

Münhen, Leypsiq kimi elmi mərkəzlərdə, qabaqcıl klinikalarda təkmilləşmə keçən azərbaycanlı həkimlər yeni elmi biliklərə, cərrahi texnikalara yiyələnmiş, tanınmış nevropatoloq və cərrahlarla fikir mübadiləsi aparmışlar. Məşhur professor Krause azərbaycanlı həkimlərə müraciətlə demişdi: "Əgər Azərbaycanın indi sizin kimi yüz oğlu varsa, yarım əsrdən sonra yüz professoru olacaqdır. Mən bütün varlığımla buna inanıram".

Mustafa bəy Topçubaşov Almaniyadan Vətənə yalnız əldə etdiyi yeni biliklərlə deyil, həm də elmi-metodik mərkəz yaratmaq ideyası ilə qayıtmışdı. O, şəhər xəstəxanalarından birində elmi-metodik bazanın əsası qoyulan ilk cərrahi mərkəzi təşkil etmiş, təcrübə və tədqiqatı gündəlik xəstəxana işi ilə sintez edə bilmişdi.

Elmi tədqiqatlara böyük maraq göstərən və bu yolda durmadan çalışan cərrah 1930-cu ildə "Malyariya mənşəli splenomeqaliyanın klinikası, patogenezi və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsinə və professor elmi adına layiq görülmüşdür.

Gənc alim 1931-ci ildə Azərbaycan Cərrahlar Cəmiyyətini yaradaraq 1939-cu ilə kimi ona rəhbərlik etmişdir.

1930-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun fəaliyyətə başlamasına dəyərli töhfələr vermiş Mustafa Topçubaşov burada Cərrahiyyə klinikasına direktor və Fakültətiv cərrahiyyə kafedrasına (indiki III Cərrahiyyə kafedrası) müdir təyin edilmiş və ömrünün sonuna qədər (1981-ci il) həm kafedra müdiri, həm də professor kimi pedaqoji

fəaliyyətlə məşğul olmuşdur. Görkəmli alim 1930-cu ildə həmçinin Semaşko adına xəstəxananın 14-cü Cərrahiyyə korpusuna rəhbər təyin edilmişdir.

Akademik Mustafa Topçubaşov tibb elmi tarixində bir sıra səmərəli kəşfləri ilə yadda qalmışdır. Bunların ən mühümlərindən biri cərrahi ağrısızlaşdırma problemi ilə bağlı olmuşdur. Mustafa bəyin bu sahədə illərlə apardığı elmi axtarışlar ona 1937-ci ildə cərrahlıq praktikasına yeni, nisbətən təhlükəsiz keyləşdirmə metodunu – "Analgezin" adlanan inyeksion efir-yağ narkozunu aşkar və tətbiq etməyə imkan vermişdir. Bu metod sadəliyinə, hazırlanma və tətbiq texnikasının asanlığına, inhalyasion narkoz zamanı rast gəlinən bir sıra mənfi halların – dərin narkoz yuxusu, qanda narkotik maddələrin yüksək konsentrasiyada toplanması və s. aradan qaldırılmasına imkan verdiyinə görə cərrahlar tərəfindən geniş tətbiq edilmişdir. Təklif edilən efir-yağ qarışığı inyeksiyalarından həm də öddaşı xəstəliyinin sancıları, travmatik şok, tetanus, qıcolma halları zamanı müalicə və eləcə də doğuş proseslərində ağrısızlaşdırma vasitəsi kimi istifadə olunmuşdur.

1945-ci ildə SSRİ Xalq Səhiyyə Komissarlığının Elmi-Tibbi Şurasının Farmakologiya Komitəsinin iclasında efir-yağ qarışığının "Analgezin" adı altında istehsal edilməsinə icazə verilmişdir. Akademik Mustafa Topçubaşov bu metodun kəşfi və tətbiqi ilə əlaqədar olaraq 1963-cü ildə A.Vişnevski adına mükafata və diploma layiq görülmüşdür. Leninqradda (Sankt-Peterburq) fəaliyyət göstərən akademik P.Kupriyanov M.Topçubaşovun "Analgezin"

haqqındakı kəşfindən danışarkən demişdir: "...Bakı nefti müharibə illərində tanklarımıza, təyyarələrimizə nə vermişdisə, efir-yağ narkozu da hərbi-səhra cərrahiyyəmizə onu vermişdir".

M.Topçubaşovun II Dünya müharibəsi dövründəki fəaliyyətləri də təqdirəlayiqdir. O, Azərbaycan Xalq Səhiyyə Komissarlığı Evakuasiya Hospitalları İdarəsinin baş cərrahı təyin olunduqdan sonra ilk dəfə olaraq hərbi-səhra cərrahlığının səviyyəsini yüksəltmiş, profilləşməsini tətbiq etmiş və bunun sayəsində ixtisaslaşmış 32 evakohospital (torakal, neyrocərrahlıq, uroloji, travmatoloji) yaradılmışdır.

Müharibə dövründə daim cəbhəyə can atan Mustafa Topçubaşov Sabunçuda cərrahi şöbəyə rəhbərlik etməklə yanaşı, Bakıdakı Dəmiryolu xəstəxanasında, Doğum evi, Xalq Səhiyyə Komissarlığı xəstəxanalarında, hərbi hospitalda, Təyyarəçilər xəstəxanasında, Keşlə, Qara şəhər, Mərdəkan, Neftçilər xəstəxanalarında, Binəqədi rayon xəstəxanasında da cərrahi əməliyyatlar aparırdı. Bakıdakı hospitalların əksəriyyətində eyni zamanda 800-1000 xəstə müalicə alırdı. Gərgin rejimdə çalışan Mustafa bəy özü bəzən bir xəstəxanaya gündə bir neçə dəfə baş çəkir, dəyərli məsləhətlər verirdi.

O ağır illərdə belə, iş prosesinin bütün gərginliyinə və vaxt darlığına baxmayaraq, elmi və ictimai fəaliyyətini dayandırmayan M.Topçubaşovun səyi ilə və ya şəxsən özü tərəfindən bir sıra əsərlər, elmi-publisistik məqalələr dərc olunurdu ki, bunların hər biri insanların sağlamlığına və

qələbəyə xidmət edirdi. Bu cür nəşrlərə "Azərbaycan hospitallarında müalicə işlərinin gedişi" (1940), "Hospital sovetinin 4-cü plenumunun elmi əsərləri" (1944), "Güllə yaralanmaları və onların ağırlaşmalarının naftalanla müalicəsi" (1945), "Müharibə dövrü yaralanmalarının bəzi xüsusiyyətləri" (1945) məcmuələrini, "Efir-yağ narkozu ilə müalicə" (1942), "Efir-yağ narkozunun bəzi məsələləri" (1943), "Efir-yağ narkozu" (1944) monoqrafiyalarını misal göstərmək olar.

Apardığı çoxsaylı əməliyyat və müşahidələr professora bir sıra səmərəli təkliflər irəli sürmək imkanı da verirdi. 1941-ci ilin sonunda M.Topçubaşovun ideyası əsasında bədəndə olan yad cisimlərin lokalizasiyasını təyin etməyə imkan verən universal cihaz yaradılmış və müvəffəqiyyətlə tətbiq edilmişdir. Bu və digər kəşflərinə görə Mustafa Topçubaşov 1943-cü ildə SSRİ Dövlət (Stalin) mükafatı laureatı adına layiq görülmüşdür.

Alim-həkimin həmçinin müharibə illərindəki əvəzsiz xidmətlərinə görə 1944-cü ildə "Lenin" ordeni və "Qafqazın müdafiəsinə görə" medalı, 1946-cı ildə isə "Qırmızı Əmək Bayrağı" ordeni və "Almaniya üzərində qələbə" medalı ilə təltif edilməsi çox şeydən xəbər verir.

Mustafa müəllimin o illərdə apardığı elmi-tədqiqat işlərinin nəticəsi olaraq kəllə sümükləri defektlərinin zədələnmiş nahiyəsinin ətrafından götürülən sümüklər vasitəsilə alloplastikası, periferik sinirlərin zədələnməsi zamanı baş vermiş iflicin tendomioplastika üsulu ilə müalicəsi, sinir liflərinin yaralanması hallarında mum-parafin tubajın-

dan istifadə edilməsi, yanıqlar zamanı parafin applikasiyasının tətbiqi, borulu sümüklərin sınıqlarında təcili aparılan metal-osteosintez üsulundan istifadə hospitallarda müvəffəqiyyətlə tətbiq olunmuş və ona respublikadan kənarda da böyük şöhrət qazandırmışdır.

Müharibə qələbə ilə bitdikdən sonra da Mustafa Topçubaşov çoxşaxəli elmi, elmi-təşkilati və həkimlik fəaliyyətlərini böyük uğurla davam etdirmişdir. Onun 1945-1950-ci illərdə Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş cərrahı vəzifəsində çalışaraq cərrahi xidmətin yenidən təşkilinə bilavasitə rəhbərlik etməsi xüsusi qeyd olunmalıdır.

Qeyd edək ki, məhz elmi-praktiki fəaliyyətində beynəlxalq miqyasda əldə etdiyi nailiyyətlərinə, ixtira və kəşflərinin dəyərinə, səhiyyə sahəsindəki xidmətlərinə görə akademik M.Topçubaşov 1948-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının müxbir, 1960-cı ildə isə həqiqi üzvü seçilmişdir.

Görkəmli alimin elmi-tədqiqat işlərinin əsas istiqamətini malyariya mənşəli splenomeqaliyanın klinikası, patogenezi, profilaktikası və cərrahi müalicəsi, öd yolları, xərçəng xəstəliklərinin cərrahi müalicə üsullarının işlənib hazırlanması və praktikaya tətbiqi, qarın və döş boşluğu orqanlarının cərrahi əməliyyat tələb edən xəstəliklərinin diaqnostikası, klinikası, profilaktikası və cərrahi müalicəsi, neyrocərrahiyyə və travmatologiya problemləri, müasir tibbi texnologiyaların işlənib hazırlanması, onların səhiyyə praktikasına tətbiqi və s. təşkil etmişdir.

M.Topçubaşov portal hipertenziya zamanı baş verən profuz qida borusu-mədə qanaxmaları ilə mübarizə metodu hazırlamış, qida borusu yanıqlarında rast gəlinən daralmaların müalicəsi ilə məşğul olmuş, bunun üçün ən yaxşı süni qida borusu vasitəsinin nazik bağırsaq olduğunu göstərmiş, borulu sümüklərin sınıqlarının təxirəsalınmaz osteosintezi üsulunu təklif etmişdir.

Alim dalaq, qaraciyər, böyrək, böyrəküstü vəzi kimi orqanlara abdominal-diafraqmal və bel-diafraqmal yollarının, urologiyada, travmatologiyada, neyrocərrahlıqda, abdominal və torakal cərrahlıqda yüksək səviyyəli əməliyyatların müəllifi kimi keçmiş Sovetlər İttifaqı, eləcə də xarici ölkə cərrahları arasında şöhrət qazanmışdı.

M.Topçubaşov hirdrosefaliya və epilepsiya kimi təhlükəli nevroloji xəstəliklərin müalicəsində də əhəmiyyətli işlər görmüşdür. Ölkəmizdə ilk dəfə hidrosefaliyanın cərrahi müalicəsi onun tərəfindən aparılmışdır. Alim bu patologiyanın daxili formasının müalicəsində piylikdən hazırlanan drenajdan istifadə edilməsini əsaslandırmışdır.

Akademik Mustafa Topçubaşovun həyat və fəaliyyətinin mühüm bir hissəsi Elmlər Akademiyası ilə bağlı olmuşdur. O, 1945-ci ildə respublikanın 14 nəfər digər görkəmli alimi ilə birgə Azərbaycan SSR Elmlər Akademiyasının ilk təsisçilərindən və ilk həqiqi üzvlərindən biri olmuşdur. Görkəmli alim qısa bir müddətdən sonra Akademiyanın Biologiya və Kənd Təsərrüfatı Elmləri Bölməsinə sədr təyin edilmiş və bu vəzifəni 1951-ci ilin yayına kimi böyük uğurla icra etmişdir. Bölmə iclaslarının protokolla-

rını izləyərkən akademikin biologiya və kənd təsərrüfatı elmlərində də dərin bilgilərinin olduğu, müxtəlif ixtisaslar üzrə kadr hazırlığına, dövlət tapşırıqlarına, xalq təsərrüfatının inkişafına elmin göstərməli olduğu dəstəyə, insanların rifahına nə qədər həssaslıqla yanaşdığı aydın görünür.

Mustafa Topçubaşovun təşəbbüsü və səyləri ilə 1946-cı ildə Elmi-Tədqiqat Naftalan Problem Laboratoriyasının və Eksperimental Kliniki Təbabət İnstitutunun (institut 1961-ci ildə Azərbaycan SSR EA-nın tərkibində təkrar yaradılmış, 1963-cü ildə SSRİ Nazirlər Sovetinin 23 fevral tarixli 222 saylı Qərarı əsasında SSRİ Tibb Elmləri Akademiyasının tərkibinə keçirilmiş, 1966-cı ildə SSRİ Səhiyyə Nazirliyinin 443 saylı əmrinə əsasən, Azərbaycan SSR Səhiyyə Nazirliyinə verilmiş, 1983-cü ildə Akademik M.A.Topçubaşov adına Elmi-Tədqiqat Kliniki Eksperimental Cərrahiyyə İnstitutuna, 1997-ci ildə Akademik M.A.Topçubaşov adına Respublika Elmi Cərrahiyyə Mərkəzinə çevrilmişdir) yaradılması haqqında qərarlar qəbul olunmuşdur. Mustafa bəy Biologiya və Kənd Təsərrüfatı Elmləri Bölməsinin tərkibində 1947-1949-cu illərdə fəaliyyət göstərmiş həmin institutun direktoru, 1961-ci ildən laboratoriya rəhbəri kimi də təqdirəlayiq işlər görmüşdür.

Akademik Mustafa Topçubaşov 1951-1956-cı və 1959-1981-ci illərdə Azərbaycan SSR EA-nın vitse-prezidenti vəzifəsində çalışmışdır. Akademiya şəhərciyi, nəşriyyatı və mətbəəsi məhz onun təşəbbüsü ilə yaradılmışdır.

Mustafa Topçubaşovun Bolqarıstanda apardığı təmənnasız mürəkkəb cərrahi əməliyyatlar, universitetlərdə və

təlim kurslarında etdiyi mühazirələr, kadr hazırlığına dəstəyi ona bolqar xalqının hüsn-rəğbətini, səmimi məhəbbətini qazandırmış və o, 1952-ci ildə Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Mustafa bəy genişmiqyaslı elmi-pedaqoji fəaliyyətlə də məşğul olmuş və yüksəkixtisaslı həkim və alim kadrlarının hazırlanmasında böyük xidmətlər göstərmişdir. Onun layihəsi üzrə rəhbərlik etdiyi kafedrada operasiyon-auditoriya təşkil edilmişdi ki, bu da tələbələrə cərrahi müdaxilənin bütün fraqmentlərini izləməyə imkan verirdi.

Akademik Mustafa Topçubaşovun elmi məsləhətçiliyi və rəhbərliyi ilə 12 doktorluq və 32 namizədlik dissertasiyasının müdafiə edilməsi elmi kadr hazırlığına verdiyi böyük töhfələrə əhəmiyyətli sübutdur.

Akademik M.Topçubaşovun əldə etdiyi elmi nailiyyətlər 5 cildlik "Xüsusi cərrahlıq" kitabında, 8 monoqrafiyada, 300-dən çox məqalədə öz əksini tapmışdır. Mustafa bəyin "Ürək-damar xəstəlikləri və onların profilaktikası", "Xüsusi cərrahiyyə", "Portal hipertenziya və onun cərrahi müalicəsi" kitabları dünyanın müxtəlif dillərinə tərcümə edilmişdir.

Görkəmli alim beynəlxalq cərrahlıq konqreslərində çıxış etmiş, xarici ölkələrdə elmi-təcrübə mübadilələrinin iştirakçısı olmuşdur.

Cərrahların Lissabonda keçirilən XI Beynəlxalq konqresində akademik Mustafa Topçubaşov 20 nəfər sovet tibb alimi ilə birlikdə Beynəlxalq Cərrahlar Assosiasiyasının üzvü seçilmişdir ki, bu da görkəmli alimin simasında dün-

ya miqyasında Azərbaycan cərrahlıq elminə verilən yüksək qiymətdir.

Görkəmli alim cəmiyyət arasında hər zaman böyük nüfuza malik olmuşdur. Bu nüfuz onun çoxşaxəli ictimai-siyasi fəaliyyətində də təzahür etmişdir. Akademik Mustafa Topçubaşov I-X çağırış Azərbaycan SSR Ali Sovetinə deputat, həmçinin SSRİ Ali Sovetinin deputatı seçilmiş, 1953-1955-ci və 1967-1971-ci illərdə Azərbaycan SSR Ali Sovetinin sədri, Azərbaycan Respublikası Sülhü Müdafiə Komitəsinin sədri (1950-1981), Ümumittifaq Sülhü Müdafiə Komitəsinin üzvü, Sovet İttifaqının Asiya və Afrika Ölkələri Xalqları ilə Həmrəylik Komitəsinin üzvü, "Böyük Tibb Ensiklopediyası"nın redaktorlarından biri və Azərbaycan Sovet Ensiklopediyası baş redaksiya heyətinin üzvü olmuşdur. O, Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədri və Ümumittifaq Sülhü Müdafiə Komitəsinin üzvü kimi çoxsaylı beynəlxalq konqreslərdə iştirak edərək, dünya xalqları arasında sülh və dostluğa həsr olunmuş bütün yüksək səviyyəli forumlarda dərin məzmunlu çıxışları ilə diqqəti cəlb etmişdir. Alim sülh işi uğrunda xidmətlərinə görə Ümumdünya Sülh Şurasının gümüş medalı və Sovet Sülhü Müdafiə Komitəsinin fəxri fərmanları ilə təltif olunmuşdur.

Akademik Mustafa Topçubaşovun ölkə və xalq qarşısında xidmətləri hər zaman yüksək qiymətləndirilmişdir. Böyük alim, pedaqoq və ictimai-siyasi xadim şərəfli fəaliyyəti ərzində Azərbaycan SSR əməkdar elm xadimi fəxri adına (1940), SSRİ Dövlət (Stalin) mükafatına (1943), SSRİ

Tibb Elmləri Akademiyasının A.Vişnevski adına mükafatına (1963), Sosialist Əməyi Qəhrəmanı fəxri adına (1975) layiq görülmüş, “Şərəf nişanı” (1936), “Qırmızı Ulduz (1936, 1942)”, 4 dəfə “Lenin” (1944, 1951, 1965, 1975), “Qırmızı Əmək Bayrağı (1946)”, “Oktyabr İnqilabı” (1971), Bolqarıstanın I dərəcəli “Kirill və M.Mefodi” ordenləri, “Oraq və Çəkic” qızıl medalı, “Qafqazın müdafiəsinə görə”, “Almaniya üzərində qələbə”, “Fədakar Əməyə görə” medalları, “SSRİ Səhiyyə Əlaçısı”, “SSRİ-nin Sanitar Müdafiəsi Əlaçısı” döş nişanları və bir çox fəxri fərmanlarla təltif edilmişdir.

Akademik Mustafa bəy Topçubaşovun xatirəsini əbədiləşdirmək məqsədilə onun Azərbaycan Dövlət Tibb İnstitutunda 51 il kaferdra müdiri vəzifəsində çalışdığı iş otağında "Xatirə muzeyi" yaradılmış, 5 cildlik “Xüsusi cərrahlıq” kitabı latın qrafikasına keçirilməklə yenidən çap olunmuş, Bakının və respublikanın bir sıra digər şəhərlərinin bəzi mərkəzi küçələrinə, Xəzər sularında üzən gəmiyə akademik Mustafa Topçubaşovun adı verilmişdir. Yuxarıda qeyd edildiyi kimi, AR Səhiyyə Nazirliyinin Respublika Elmi Cərrahiyyə Mərkəzi 1983-cü ildən böyük alimin adını daşıyır.

1995-ci ildə Azərpoçt tərəfindən Mustafa Topçubaşovun 100 illik yubileyinə həsr olunmuş poçt markası buraxılmışdır.

Akademik Mustafa Topçubaşovun anadan olmasının 100 illik yubiley mərasimi 14 oktyabr 1995-ci ildə Opera və Balet teatrında Ümummilli Lider Heydər Əliyevin iştirakı

ilə keçirilmişdir. Tədbirdə çıxış edən Ulu Öndər böyük alimin irsinə elmi və elmi-təşkilati fəaliyyətinə çox yüksək qiymət vermişdir: "Mustafa bəy Topçubaşovun həyat yolu, yaradıcılığı, onun bizim üçün və gələcək nəsillər üçün qoyduğu irs milli sərvətimiz və milli iftixarımızdır". "Mustafa bəy Topçubaşov nadir bir sima və nadir bir insan olmuşdur... Azərbaycan xalqının formalaşmasında, milli təfəkkürün inkişafında, xalqımızın ağır xəstəliklərdən qurtulmasında, elmimizin, təhsilimizin inkişaflarında böyük xidmətlər göstəribdir".

Akademik M.Topçubaşov cəmiyyət arasında gözəl ailə başçısı kimi də hörmət qazanmışdır. Onun həyat yoldaşı Reyhan xanım Topçubaşova Azərbaycan Rəssamlar İttifaqının üzvü olmuş, Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür. Oğlu – alim-cərrah, professor İbrahim Topçubaşov beynəlxalq aləmdə novator-cərrah kimi tanınmış və ölkəmizdə həkim-bəstəkar kimi də şöhrət qazanmışdır. Qızı Zemfira xanım uzun illər ATU-nun Mamalıq və ginekologiya kafedrasının müdiri vəzifəsində çalışmış, Əməkdar həkim fəxri adına, Prezidentin Fəxri təqaüdünə layiq görülmüşdür. Elmira xanım isə musiqişünas-alim olmuş, Əməkdar müəllim fəxri adını almış və Azərbaycan Musiqi Akademiyasının dosenti vəzifəsində çalışmışdır.

Azərbaycan xalqının 1981-ci il noyabrın 20-də əbədiyyətə qovuşan sədaqətli oğlu, görkəmli elm fədaisi, alovlu vətənpərvər, ictimai-siyasi xadim, akademik Mustafa bəy

Topçubaşov qədirbilən xalqımızın qəlbində həmişə yaşayacaqdır.

Bu böyük şəxsiyyətin şərəfli həyat yolu yalnız bir alim və həkimin bioqrafiyası deyil, həm də elm, əxlaq və vətəndaşlıq məktəbidir.

Akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illiyi münasibətilə keçirilən yubiley tədbirləri, konfranslar, sərgilər, çap olunan nəşrlər və ictimai dəyərləndirmələr onun ideyalarının, kəşflərinin, yaratdıqlarının bu gün də aktuallığını saxladığını və yolgöstərici mahiyyətini təsdiqləyir. Bu parlaq şəxsiyyətin həyat və fəaliyyəti gələcək nəsillər üçün həmişə nümunə olacaq, onun elmi irsi isə Azərbaycan tibb elminin inkişafında öz möhtəşəm izini daima qoruyub saxlayacaqdır.

**İradə HÜSEYNOVA**
*AMEA-nın vitse-prezidenti, akademik*

# A BRIEF ESSAY ON THE LIFE, ACADEMIC, SCIENTIFIC-ORGANIZATIONAL, MEDICAL, PEDAGOGICAL AND SOCIO-POLITICAL ACTIVITIES OF ACADEMICIAN MUSTAFA TOPCHUBASHOV

One of the prominent figures who left an indelible mark on the history of science and healthcare in Azerbaijan and played a significant role in the nation's renaissance is the distinguished scientist and public figure, Doctor of Medical Sciences, Full Member of the USSR Academy of Medical Sciences, laureate of the USSR State Prize, Honored Scientist, Academician Mustafabey Aghabey oglu Topchubashov.

Through his fundamental and applied medical research and scientific discoveries, Mustafa Topchubashov opened a new chapter in the development of Azerbaijani medical science, strengthening the foundations of the modern healthcare system and making valuable contributions to the well-being of the people. Combining academic thought with a realistic outlook on life and humanitarian principles with organizational skills, Topchubashov played a crucial role in shaping the social health institutions of society. As a Full Member of both the USSR Academy of Medical Sciences and the Academy of Sciences of the Azerbaijan SSR, and as a laureate of the State Prize, he successfully directed his scientific authority toward serving the strategy of national development.

The academician’s theoretical and practical activity is remembered both for scientific structuring, the training of a new generation of specialists, and the development of systematic methods for combating diseases. The institutions he led became pillars of medical science and healthcare in Azerbaijan.

As the National Leader of the Azerbaijani people, Heydar Aliyev, emphasized, the scientific and moral legacy of Mustafa Topchubashov is a national treasure and a source of pride. His entire life, conduct, attitude toward people, especially those in need of medical care, and his civic ethics can be regarded as a triumph of the principles of humanism.

The life and work of Academician Mustafa Topchubashov are valued not only for the era in which he lived, but also as support for the health of future generations and as a source of inspiration for their scientific ideals. For this reason, the memory of this great scientist and organizer of science, together with his scientific legacy and deeds, has not faded over time. On the contrary, it has gained even greater value, and his jubilees have always been celebrated at the highest level.

This year is no exception: in accordance with the Decree of the President of the Republic of Azerbaijan dated June 10, 2025, the 130th Anniversary of Academician Mustafabey Aghabey oglu Topchubashov’s birth is being widely celebrated at the national level. The Decree states: “He brought significant achievements to

Azerbaijani medical science and made invaluable contributions to the establishment of medical education and the healthcare system on modern foundations. Mustafa Topchubashov was among the founders of the surgical school in the republic… The application of widely adopted original methods in practical surgery and the worthy representation of Azerbaijani surgery at the international level are closely associated with the name of Mustafa Topchubashov."

In the present essay, we will look into the life path of this great scientist, his rich scientific creativity, and his historical mission, while also seeking to re-examine his multifaceted legacy bequeathed to future generations in the light of modern, independent, and sovereign Azerbaijani identity.

Academician Mustafa Topchubashov was born on August 5, 1895, in the ancient city of Irevan, which was one of the cultural and scientific centers of Western Azerbaijan. He received his primary education at a school founded by Mirza Rza Gadimov, the grandson of the renowned Azerbaijani painter Mirza Gadim Irevani. He continued his studies at the Russian-language boys' gymnasium, which later produced such distinguished figures in Azerbaijani history as statesman and scientist Aziz Aliyev. Having graduated from the gymnasium with a gold medal in 1914, he left his native home forever and moved to Ukraine, where he entered the Faculty of Medicine at Kyiv University.

As a young student, Mustafa bey studied under leading scientists and educators of the time, among the founders of modern surgery, through whom he shaped his scientific worldview, mastered the fundamental knowledge of medical science, and made it his life's mission to seek solutions to the complex health challenges posed by the twentieth century.

In 1919, having completed his higher education, Mustafa Topchubashov returned to his newly independent homeland, Baku, which was facing serious healthcare challenges, and began working as a surgical resident at the Department of Surgery of the Faculty of Medicine at Baku University. His professional development was furthered through the scientific and methodological support of Professor Ivan Ivanovich Shirokogorov, Dean of the Faculty; Arkady Aleksandrovich Oshman, Head of the Department of Surgery; and Professor Vasily Ivanovich Razumovsky, Rector of the University and a distinguished surgeon-anatomist. Under their guidance, Mustafa Topchubashov worked in an intensive academic and practical environment, mastering new medical techniques and laying the foundation for his formation as a professional surgeon. In later years, he would refer to A. Oshman as his "second university".

It should be noted that Professor A. Oshman was the first head of the structure established at Baku State University between 1919 and 1930, which was later renamed the Department of Faculty Surgery of the Therapeutic

and Preventive Medicine Faculty at Azerbaijan Medical University (currently the 3rd Department of General and Surgical Diseases).

In 1922, at the suggestion of Nariman Narimanov, Mustafa Topchubashov was sent to Nakhchivan, where he organized a hospital, outpatient clinics, and feldsher (medical assistant) stations in Ordubad. Mustafa bey performed his first official surgical operation in Nakhchivan. The academician later described that period in his memoirs as follows: "There was no beginning or end to my working hours. Patients were brought or summoned to me at any hour of the day or night. I worked as a therapist, surgeon, neurologist, epidemiologist, tuberculosis specialist, and infectious disease doctor… As a physician, you are also a healer and you must find a remedy for every ailment".

In 1923, Mustafa Topchubashov was brought back to Baku and, upon the recommendation of Professor A. Oshman, was appointed Head of the Department of Surgery at the Pasteur Hospital in Bayil, which primarily served oil workers, as well as Head of the Surgical Clinic of the People's Commissariat of Health of the Azerbaijan SSR. He frequently traveled to the regions, organizing surgical departments on site, establishing the mechanisms of pre-hospital and outpatient surgical care, and providing direct medical assistance to the population. Between 1928 and 1930, he continued his activities as an assistant at the Department of Surgery Clinic of the Faculty of Medicine

of Azerbaijan State University, while simultaneously heading the 11th Surgical Unit of the Semashko Hospital.

In the early years of Soviet rule, infectious diseases such as scarlet fever, dysentery, malaria, and trachoma posed serious threats to the population. Taking this into account, in July 1925, the government of Azerbaijan adopted a decree “On the Fight Against Fever in the Azerbaijan SSR.” Recognizing the issue in depth, Mustafa Topchubashov directed his scientific research toward the clinical aspects, pathogenesis, and prevention of malaria.

In 1926, among the physicians sent by the Azerbaijan People’s Commissariat of Education to Germany for medical training were the future academicians Mirasadul-la Mirgasimov and Mustafa Topchubashov. Azerbaijani doctors who advanced their skills in leading scientific centers and clinics in Berlin, Munich, and Leipzig acquired new scientific knowledge, learned innovative surgical techniques, and engaged in professional exchanges with leading neurologists and surgeons. The renowned Professor Krause addressed the Azerbaijani physicians, saying: “If Azerbaijan now has a hundred sons like you, in half a century it will have a hundred professors. I believe this with all my heart”.

Mustafa bey Topchubashov returned from Germany not only with newly acquired knowledge but also with the idea of creating a scientific-methodological center. He established the first surgical center in one of the city hospitals, where the foundation of a scientific-methodo-

logical base was laid, successfully integrating clinical practice with research and experimentation in daily hospital work.

A surgeon with a profound interest in research and tireless dedication to science, in 1930, Mustafa Topchubashov defended his doctoral dissertation on "Clinical Profile, Pathology, and Surgical Treatment of Malarial Splenomegaly", earning the academic degree of Doctor of Medical Sciences and the title of Professor.

In 1931, the young scholar founded the Azerbaijan Society of Surgeons, which he chaired until 1939.

In 1930, Mustafa Topchubashov, who made valuable contributions to the establishment of the Azerbaijan State Medical Institute, was appointed Director of the Department of Surgery Clinic and Head of the Faculty Surgery Chair (presently the 3rd Surgery Department). He continued his pedagogical activities as both Head of Department and Professor until the end of his life (1981). In the same year, the eminent scientist was also appointed Head of the 14th Surgical Unit of the Semashko Hospital.

Academician Mustafa Topchubashov is remembered in the history of medical science for a number of significant discoveries, one of the most important being related to the problem of surgical anesthesia. Years of scientific research in this field enabled him, in 1937, to introduce into surgical practice a new and relatively safe method of anesthesia—an injectable ether-oil narcosis known as "Analgezin." Due to its simplicity, ease of

preparation and application, and its ability to eliminate several adverse effects associated with inhalation anesthesia, such as deep narcotic sleep and the accumulation of anesthetic substances in the blood at high concentrations. This method was widely adopted by surgeons. The proposed ether-oil mixture injections were also used as a means of pain relief in cases of gallstone colic, traumatic shock, tetanus, convulsions, and during childbirth.

In 1945, at a meeting of the Pharmacology Committee of the Scientific-Medical Council of the USSR People's Commissariat of Health, permission was granted for the production of the ether-oil mixture under the name "Analgezin." For the discovery and application of this method, Academician Mustafa Topchubashov was awarded the A.Vishnevsky Prize and Diploma in 1963. Speaking about Topchubashov's discovery of Analgezin, Academician P.Kupriyanov from Leningrad (St.Petersburg) remarked: "…What Baku oil gave to our tanks and aircraft during the war years, ether-oil anesthesia gave to our military field surgery."

M.Topchubashov's activities during the Second World War were also highly commendable. After being appointed Chief Surgeon of the Directorate of Evacuation Hospitals of the Azerbaijan People's Commissariat of Health, he was the first to raise the level of military field surgery and to introduce its specialization. As a result, 32 specialized evacuation hospitals were established,

including thoracic, neurosurgical, urological, and traumatological units.

During the war, Mustafa Topchubashov, who was constantly striving to reach the front, not only headed the surgical department in Sabunchu but also performed surgical operations at the Railway Hospital in Baku, the Maternity Hospital, the hospitals of the People's Commissariat of Health, the military hospital, the Aviators' Hospital, and the hospitals in Keshla, Black City, Mardakan, Neftchilar, and the Binagadi district. In most of the hospitals in Baku, 800-1000 patients were being treated simultaneously. Working under an intense schedule, Mr. Mustafa himself sometimes visited a hospital several times a day, offering his valuable advice.

Even during those difficult years, despite the overall intensity of work and the shortage of time, M.Topchubashov did not cease his scientific and public activities. Through his efforts, or authored by him personally, a number of works and scientific-publicistic articles were published, each of which served both public health and victory. Among such publications were the collections "The Course of Medical Work in Azerbaijani Hospitals" (1940), "Scientific Works of the 4th Plenary Session of the Hospital Council" (1944), "Treatment of Gunshot Wounds and Their Complications with Naftalan" (1945), "Some Features of Wartime Injuries" (1945), as well as the monographs "Treatment with Ether-Oil Anesthe-

sia" (1942), "Some Issues of Ether-Oil Anesthesia" (1943), and "Ether-Oil Anesthesia" (1944).

The numerous operations and observations he carried out also enabled the professor to put forward a number of effective proposals. At the end of 1941, based on M.Topchubashov's idea, a universal device was created and successfully applied, allowing the localization of foreign bodies in the human organism. For this and other discoveries, Mustafa Topchubashov was awarded the USSR State (Stalin) Prize in 1943.

The fact that the scientist-physician was also honored for his invaluable services during the war years with the Order of Lenin and the medal "For the Defense of the Caucasus" in 1944, and later with the Order of the Red Banner of Labour and the medal "For the Victory over Germany" in 1946, clearly demonstrates his invaluable services.

As a result of the scientific research conducted by Professor Mustafa Topchubashov during those years, a number of methods were successfully applied in hospitals, including alloplasty of skull bone defects using bone taken from the area surrounding the damaged site, treatment of paralysis caused by peripheral nerve injuries through the method of tendomyoplasty, the use of wax-paraffin tubing in cases of nerve fiber damage, the application of paraffin dressings for burns, and the emergency use of the metal osteosynthesis method in cases of long bone fractures.

Academician Mustafa Topchubashov also gained great renown beyond the republic for his highly significant original proposals in the surgical treatment of peripheral nerve injuries through wax-paraffin tubing, tendomyoplasty in cases of treatment-resistant paralysis of the limbs, cranioplasty of the skull bones, and other methods.

After the war ended in victory, Mustafa Topchubashov successfully continued his multifaceted scientific, organizational, and medical activities. It should be particularly noted that between 1945 and 1950, while serving as Chief Surgeon of the Ministry of Health of the Azerbaijan SSR, he directly oversaw the reorganization of surgical services.

It should be noted that, precisely for his internationally recognized achievements in scientific and practical work, the value of his inventions and discoveries, and his contributions to healthcare, Academician M.Topchubashov was elected a corresponding member of the USSR Academy of Medical Sciences in 1948, and a full member in 1960.

The main focus of the distinguished scientist's research was on the clinical aspects, pathogenesis, prevention, and surgical treatment of malaria-induced splenomegaly; the development and practical application of surgical methods for diseases of the bile ducts and cancer; the diagnosis, clinical course, prevention, and surgical treatment of diseases of the abdominal and thoracic organs requiring operative intervention; issues in neurosurgery and

traumatology; as well as the development of modern medical technologies and their implementation in healthcare practice.

M.Topchubashov developed a method to manage profuse esophageal–gastric bleeding occurring in portal hypertension, addressed strictures arising from esophageal burns, and demonstrated that the best artificial esophagus conduit is the small intestine. He also proposed an urgent osteosynthesis technique for long bone fractures.

The scientist gained renown among surgeons in the former Soviet Union as well as abroad as the author of high-level operations on organs such as the spleen, liver, kidney, and adrenal glands via abdominal-diaphragmatic and lumbar-diaphragmatic approaches, and in the fields of urology, traumatology, neurosurgery, and abdominal and thoracic surgery.

M.Topchubashov also made significant contributions to the treatment of serious neurological disorders such as hydrocephalus and epilepsy. For the first time in our country, the surgical treatment of hydrocephalus was performed by M.Topchubashov. He justified the use of a fat-based drainage for the treatment of the internal form of this pathology.

A significant part of Academician Mustafa Topchubashov's life and work was closely connected with the Academy of Sciences. In 1945, together with 14 other prominent scientists of the republic, he became one of the first founders and full members of the Azerbaijan SSR

Academy of Sciences. Shortly thereafter, the eminent scientist was appointed Chairman of the Department of Biology and Agricultural Sciences of the Academy. He successfully held the position until the summer of 1951. Reviewing the protocols of the department's meetings, it is evident that the academician possessed profound knowledge in biology and agricultural sciences, and approached personnel training in various specialties, state assignments, the development of the national economy, and the welfare of the people with remarkable sensitivity.

Through the initiative and efforts of Mustafa Topchubashov, in 1946 decisions were made to establish Naftalan Scientific-Research Problem Laboratory and Institute of Experimental Clinical Medicine (the institute was reestablished in 1961 under the Azerbaijan SSR Academy of Sciences, in 1963 transferred to the USSR Academy of Medical Sciences by Decree No. 222 of the USSR Council of Ministers dated February 23, in 1966 subordinated to the Azerbaijan SSR Ministry of Health by Order No. 443 of the USSR Ministry of Health, renamed in 1983 as the Scientific Research Clinical Experimental Surgery Institute named after Academician M.A. Topchubashov, and in 1997 transformed into the Republican Scientific Surgery Center named after Academician M.A. Topchubashov). Mustafa Topchubashov admirably served as the director of this institute under the Department of Biological and Agricultural Sciences from 1947 to 1949 and from 1961 onward as head of the laboratory.

Academician Mustafa Topchubashov served as Vice-president of the Azerbaijan SSR Academy of Sciences from 1951 to 1956 and again from 1959 to 1981. The Academy's campus, publishing house, and printing press were established on his initiative.

His selfless performance of complex surgical operations in Bulgaria, lectures at universities and training courses, and support for personnel training earned him the admiration and sincere affection of the Bulgarian people, and in 1952, he was elected a corresponding member of the Bulgarian Academy of Sciences.

Mustafa Topchubashov was also extensively engaged in scientific and pedagogical activities and made significant contributions to the training of highly qualified doctors and scientists. Under his project, the department he led established an operating auditorium, which allowed students to observe all stages of surgical interventions.

The defense of 12 doctoral and 32 candidate dissertations under the scientific guidance and supervision of Academician Mustafa Topchubashov serves as substantial evidence of his major contributions to the training of scientific personnel.

The scientific achievements of Academician M.Topchubashov are reflected in the five-volume book "Special Surgery", eight monographs, and over 300 articles. Mustafa Topchubashov's books, including "Cardiovascular diseases and their prevention", "Special surgery", and "Portal

hypertension and its surgical treatment", have been translated into various languages around the world.

The distinguished scientist delivered presentations at international surgical congresses and participated in scientific and practical exchanges abroad.

At the XI International Congress of Surgeons held in Lisbon, Academician Mustafa Topchubashov, together with 20 other Soviet medical scientists, was elected a member of the International Association of Surgeons, which reflects the high recognition and value given to Azerbaijani surgical science worldwide through the achievements of this prominent scientist.

The distinguished scientist always enjoyed great prestige in society, which was also reflected in his multifaceted public and political activities. Academician Mustafa Topchubashov was elected to the I-X convocations of the Supreme Soviet of the Azerbaijan SSR, served as a deputy of the Supreme Soviet of the USSR, was Chairman of the Supreme Soviet of the Azerbaijan SSR in 1953-1955 and 1967-1971, chaired the Azerbaijan Peace Defense Committee (1950-1981), was a member of the All-Union Peace Defense Committee, and a member of the USSR Committee for Solidarity with the Peoples of Asia and Africa. He was also one of the editors of the Great Medical Encyclopedia and a member of the editorial board of the Azerbaijan Soviet Encyclopedia. As Chairman of the Azerbaijan Peace Defense Committee and a member of the All-Union Peace Defense Committee, he

participated in numerous international congresses and drew attention with his profound speeches at high-level forums dedicated to peace and friendship among the peoples of the world. For his contributions to the cause of peace, he was awarded the Silver Medal of the World Peace Council and honorary diplomas from the Soviet Peace Defense Committee.

The services of Academician Mustafa Topchubashov to the country and the people were always highly valued. Throughout his honorable life as a great scientist, educator, and public-political figure, he was awarded the honorary title of Distinguished Scientist of the Azerbaijan SSR (1940), the USSR State (Stalin) Prize (1943), the Order of Lenin four times (1944, 1951, 1965, 1975), the Order of the October Revolution (1971), the Order of the Red Banner of Labour (1946), the Order of the Red Star (1942), the Order of the Badge of Honour (1936), the A.Vishnevsky Prize of the USSR Academy of Medical Sciences (1963), the title of Hero of Socialist Labour (1975), the 1st Class Order of Cyril and Methodius of Bulgaria, the Gold Medal of the Hammer and Sickle, the medals For the Defense of the Caucasus, For the Victory over Germany, and For Distinguished Labour, the badges Excellence in Health Protection of the USSR and Excellence in Sanitary Defense of the USSR, as well as numerous honorary diplomas.

To honor the memory of Academician Mustafa Topchubashov, a "Memorial Museum" was established in

the office where he served as head of the department for 51 years. His five-volume book "Special Surgery" was transliterated into the Latin script and republished. Additionally, one of the main streets in Baku and several other cities of the republic, as well as a vessel navigating the Caspian Sea, were named after Academician Mustafa Topchubashov. As noted above, since 1983, the Republican Scientific Surgery Center under the Ministry of Health of Azerbaijan has also borne the name of this eminent scientist.

In 1995, Azerpocht issued a postage stamp dedicated to the 100th Anniversary of Mustafa Topchubashov.

The centennial celebration of Academician Mustafa Topchubashov's birth was held on October 14, 1995, at the Opera and Ballet Theatre with the participation of the National Leader, Heydar Aliyev. Speaking at the event, the Leader highly praised the scientist's legacy, scientific, and organizational contributions:

"The life path and creative work of Mustafa Topchubashov, as well as the legacy he left for us and for future generations, are our national treasure and national pride."

"Mustafa Topchubashov was a rare figure and a remarkable person… He made great contributions to the formation of the Azerbaijani people, the development of national thinking, the elimination of severe diseases among our people, and the advancement of our science and education."

Academician M.Topchubashov also earned respect in society as a devoted family man. His wife, Reyhan Topchubashova, was a member of the Azerbaijan Union of Artists and was awarded the honorary title of Distinguished Artist. His son, the renowned scientist and surgeon Professor Ibrahim Topchubashov, became internationally recognized as an innovative surgeon and also gained fame in Azerbaijan as a physician-composer. His daughter Zemfira served for many years as the head of the Department of Obstetrics and Gynecology at Azerbaijan Medical University, and was awarded the honorary title of Distinguished Doctor and the Presidential Honorary Pension. His daughter Elmira was a musicologist, received the honorary title of Distinguished Teacher, and served as an associate professor at the Azerbaijan Music Academy.

The loyal son of the Azerbaijani people, distinguished devotee of science, passionate patriot, public and political figure, Academician Mustafa Topchubashov, who passed away on November 20, 1981, will forever live in the hearts of our grateful nation.

The honorable life of this great personality is not only the biography of a scientist and physician but also a lesson in science, morality, and civic responsibility.

The jubilee events, conferences, exhibitions, published works, and public evaluations held on the occasion of Academician Topchubashov's 130th birth Anniversary confirm that his ideas, discoveries, and creations remain relevant today and continue to serve as guiding principles.

The life and work of this remarkable personality will live on as an example for future generations, and his scientific legacy will forever leave a magnificent mark on the development of medical science in Azerbaijan.

**Irada HUSEYNOVA**
*Vice-president of ANAS, Academician*

# HƏYATI, ELMİ-PEDAQOJİ VƏ İCTİMAİ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

**Mustafa Ağabəy oğlu Topçubaşov** 5 avqust 1895-ci ildə Qərbi Azərbaycanın İrəvan şəhərində anadan olmuşdur.

| | | |
|---|---|---|
| ***1904*** | - | İlk təhsilini tanınmış Azərbaycan rəssamı Mirzə Qədim İrəvaninin nəvəsi Mirzə Rza Qədimovun açdığı ibtidai məktəbdə almışdır. |
| ***1904-1914*** | - | Orta təhsilini İrəvan rus kişi gimnaziyasında qızıl medalla bitirmişdir (İrəvan şəhərinin Daşlı məhəlləsində yerləşən İbadulla bəy Muğanlinskinin pansionatı). |
| ***1914-1919*** | - | Kiyev Tibb Universitetinin Tibb fakültəsində ali təhsil almışdır (Ukrayna). |
| ***1919-1922*** | - | Bakı Universitetinin (indiki Bakı Dövlət Universiteti) Tibb fakültəsinin Cərrahiyyə klinikasında ordinator kimi çalışmışdır. |
| ***1920-1981*** | - | Azərbaycan Dövlət Universiteti və Azərbaycan Dövlət Tibb İnstitutunda elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşdur. |
| ***1922*** | - | N.Nərimanovun təklifi ilə Naxçıvana göndərilmiş, burada xəstəxana, ambulatoriya, Ordubadda feldşer məntəqələri təşkil etmişdir. Naxçıvanda ilk rəsmi cərrahiyyə əməliyyatını həyata keçirmişdir. |
| ***1923-1927*** | - | Professor A.Oşmanın təqdimatı ilə əsasən neftçilərə xidmət edən və Bayılda yerləşən Paster adına xəstəxananın Cərrahiyyə şöbəsinin müdiri təyin edilmişdir; |

- Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı Cərrahiyyə xəstəxanasının müdiri təyin edilmişdir.

***1926-1927*** - Tibbi təcrübə keçmək üçün Almaniyaya (Berlin, Münhen, Leypsiq və digər şəhərlərdə) elmi ezamiyyətə göndərilmişdir.

***1927-1930*** - Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinin Cərrahiyyə klinikasında assistent kimi fəaliyyətini davam etdirmişdir;

- Semaşko adına xəstəxananın 11 Cərrahiyyə korpusuna rəhbərlik etmişdir;
- Tibb fakültəsində Cərrahiyyə fənnindən dərs deməyə cəlb edilən ilk milli kadrlardan olmuşdur.

***1930*** - Professor A.Oşmanın rəhbərliyi altında "Malyariya splenomeqaliyasının klinik, patoloji və cərrahiyyə müalicəsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir;

- Professor elmi adını almışdır;
- Azərbaycan Cərrahlar Cəmiyyətini yaratmışdır.

***1930-1939*** - Azərbaycan Cərrahlar Cəmiyyətinin rəhbəri olmuşdur.

***1930-1981*** - Azərbaycan Dövlət Tibb İnstitutunun Fakültətiv cərrahiyyə kafedrasının (indiki III Cərrahi Xəstəliklər kafedrası) müdiri olmuşdur.

***1936, 27 yanvar*** - "Qırmızı Ulduz" ordeni təqdim olunmuşdur.

***1936*** - "Şərəf nişanı" ordeninə layiq görülmüşdür.

*1937* - Dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq orijinal keyitmə üsulu olan inyeksion efır-yağ narkozunu – analgeziya üsulunu kəşf etmişdir. Bu kəşf "Analgezin" adı ilə məşhur olmuşdur.

*1939* - Moskva Mərkəzi Elmi-Tədqiqat Neyrocərrahiyyə İnstitutunda keçirilən Neyrocərrahların Ümumittifaq sessiyasında "Travmatik şokun müalicəsində efir-yağ ağrıkəsicisinin tətbiqi" mövzusunda çıxış etmişdir;

- Azərbaycan Dövlət Tibb İnstitutu M.Topçubaşovun "İnyeksiya efir-yağ narkozu" məqalələr məcmuəsini çap etdirmişdir.

*1940, 23 aprel* - Azərbaycan SSR Əməkdar elm xadimi fəxri adı verilmişdir.

*1941* - Azərbaycan Xalq Səhiyyə Komissarlığı Evakuasiya Hospitalları İdarəsinin baş cərrahı təyin olunmuşdur. Müharibə dövründə ilk dəfə olaraq professor M.Topçubaşov hospitallar sistemində hərbi-səhra cərrahlığının profilləşməsini tətbiq etmiş və bunun sayəsində ixtisaslaşmış evakohospitallar (torakal, neyrocərrahiyyə, uroloji, travmatoloji) yaradılmışdır;

- M.Topçubaşovun ideyası əsasında bədəndə olan yad cisimlərin lokalizasiyasını təyin etməyə imkan verən universal cihaz yaradılmış və müvəffəqiyyətlə tətbiq edilmişdir;
- Azərbaycan SSR Əməkdar həkimi fəxri adı verilmişdir.

| | | |
|---|---|---|
| ***1942, 3 mart*** | - | "Qırmızı Ulduz" ordeni təqdim olunmuşdur. |
| ***1943, 26 mart*** | - | Dövlət (Stalin) mükafatına layiq görülmüşdür. |
| ***1944, 4 noyabr*** | - | Sabunçudakı Caparidze adına xəstəxananın Cərrahiyyə şöbəsinə rəhbərlik etmişdir; |
| | - | "Lenin" ordeni təqdim olunmuşdur; |
| | - | "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olunmuşdur. |
| ***1945*** | - | 14 digər görkəmli alimlə birgə Azərbaycan SSR Elmlər Akademiyasının təsisçisi olmuşdur; |
| | - | Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir; |
| | - | Analgeziya üsulunun kəşfi: keçmiş SSRİ Xalq Səhiyyə Komissarlığı Elmi Tibbi Şurasının Farmakologiya Komitəsinin iclasında efır-yağ qarışığının "Analgezin" adı altında istehsal edilməsinə icazə verilmişdir; |
| | - | "SSRİ Təcili Tibbi Yardım xidmətinin əlaçısı" döş nişanı verilmişdir. |
| ***1945-1950*** | - | Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş cərrahı olmuşdur. |
| ***1945-1951*** | - | Azərbaycan SSR Elmlər Akademiyasının Biologiya və Kənd Təsərrüfatı Elmləri Bölməsinin sədri vəzifəsində çalışmışdır. |
| ***1946, 25 fevral*** | - | "Qırmızı Əmək Bayrağı" ordeni təqdim olunmuşdur; |
| | - | "1941–1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı ilə təltif edilmişdir; |

| | | |
|---|---|---|
| | - | "Əmək rəşadətinə görə" medalı təqdim olunmuşdur. |
| *1946* | - | Onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Elmi-Tədqiqat Naftalan Problem Laboratoriyası və Eksperimental Kliniki Təbabət İnstitutu (indiki akad. M.A.Topçubaşov adına Respublika Elmi Cərrahiyyə Mərkəzi) təşkil edilmişdir. |
| *1947* | - | Sovet İttifaqı Kommunist Partiyasının üzvü seçilmişdir; |
| | - | Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. |
| *1947-1949* | - | Azərbaycan EA Eksperimental Kliniki Təbabət İnstitutunun direktoru vəzifəsində çalışmışdır. |
| *1948* | - | SSRİ Tibb Akademiyasının müxbir üzvü seçilmişdir. |
| *1949, 10 may* | - | Azərbaycan EA-nın böyük zalında M.Topçubaşovun elmi-tibbi və ictimai fəaliyyətinin 30 illiyi qeyd edilmişdir. |
| *1950-1981* | - | Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədri vəzifəsində çalışmış, Sovet Sülhü Müdafiə Komitəsinin, Asiya və Afrika Ölkələri ilə Həmrəylik Komitəsinin üzvü olmuşdur. |
| *1951, 6 noyabr* | - | "Lenin" ordeni təqdim olunmuşdur (2-ci dəfə). |
| *1951-1956* | - | Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsində çalışmışdır. |
| *1952* | - | Bolqarıstan Elmlər Akademiyasının müx- |

bir üzvü seçilmişdir;

- Vyanada keçirilən İkinci Ümumdünya Sülh konqresinin nümayəndəsi təyin edilmişdir;
- Koreyada Müharibənin Sonu üzrə Ümumdünya Komitəsinin bölmə üzvü seçilmişdir;
- Sovet Sülhü Müdafiə Komitəsinin xətti ilə Vyanada keçirilən konfransda iştirak etmişdir.

***1953*** - Bolqarıstan-Sovet ayı çərçivəsində Sovet İttifaqından olan nümayəndə heyətinin üzvü seçilmişdir.

***1953-1955*** - Azərbaycan SSR Ali Sovetinin sədri olmuşdur.

***1954*** - Lissabon şəhərində keçirilən Cərrahların XI beynəlxalq konqresində Ümumdünya Cərrahlar Assosiasiyasının üzvü seçilmişdir;

- Azərbaycan Dövlət Tibb İnstitutunda çalışdığı kafedrada operasiyon-auditoriya yaratmışdır;
- Üçüncü çağırış Azərbaycan SSR Ali Sovetinin sədri təyin edilmişdir;
- Ümumittifaq və Beynəlxalq Cərrahlar Assosiasiyasının üzvü seçilmişdir.

***1956*** - Almaniyanın Berlin şəhərində Cərrahların Beynəlxalq konqresində "Öddaşı xəstəliyinin efir-yağ keyitməsi ilə müalicəsi" mövzusunda məruzəsi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir;

- Məruzə əsasında tərtib edilən elmi məqalə

| | | |
|---|---|---|
| | | həmin ildə Leypsiqdə çıxan beynəlxalq tibb jurnalında dərc olunmuşdur; |
| | - | Suriyada səfərdə olmuşdur; |
| | - | Livanda səfərdə olmuşdur. |
| ***1959*** | - | Ümumdünya Sülh Şurasının gümüş medalına layiq görülmüşdür; |
| | - | Sovet Sülhü Müdafiə Komitəsinin Fəxri fərmanı ilə təltif edilmişdir. |
| ***1959, 15 sentyabr*** | - | Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti seçilmişdir. |
| ***1959-1981*** | - | Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti olmuşdur. |
| ***1960*** | - | SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü seçilmişdir; |
| | - | Cərrahiyyə və Uroloji Cəmiyyətlərin fəxri sədri olmuşdur. |
| ***1962*** | - | Almaniyada səfərdə olmuşdur; |
| | - | Afrikada səfərdə olmuşdur. |
| ***1963*** | - | SSRİ Tibb Elmləri Akademiyasının A.V.Vişnevski adına Elmi-Tədqiqat Cərrahiyyə İnstitutunda keçirdiyi elmi sessiya M.Topçubaşovun "Sürəkli analgeziya" adlı kəşfinə həsr olunmuşdur; |
| | - | Həmin sessiyanın qərarı ilə M.Topçubaşov tibb elminin inkişafında, xüsusilə analgezin inyeksiya üsulunun işlənib hazırlanmasında xidmətlərinə görə A.V.Vişnevski adına mükafat və xatirə medalı ilə təltif olunmuşdur. |
| ***1965*** | - | Anadan olmasının 70, elmi-pedaqoji fəaliy- |

yətinin 45 illiyi təntənə ilə qeyd edilmişdir.

***1965*** - "Lenin" ordeni ilə təltif olunmuşdur (3-cü dəfə).

***1967-1971*** - Azərbaycan SSR Ali Sovetinin sədri olmuşdur.

***1969*** - İtaliyada səfərdə olmuşdur.

***1970*** - "V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə rəşadətli əməyə görə" medalı ilə təltif edilmişdir;

- Bolqarıstanda elmi ezamiyyətdə olmuşdur;
- I dərəcəli "Kirill və Mefodi" ordeni ilə təltif olunmuşdur.

***1971, 20 iyul*** - "Oktyabr inqilabı" ordeni ilə təltif olunmuşdur.

***1975*** - Azərbaycan hökuməti və SSRİ Tibb Elmləri Akademiyasının Rəyasət Heyəti tərəfindən anadan olmasının 80, elmi-pedaqoji fəaliyyətinin 55 illiyi təntənə ilə qeyd edilmişdir.

***1975, 4 avqust*** - Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görümüşdür;

- "Lenin" ordeni ilə təltif olunmuşdur (4-cü dəfə);
- "Oraq və Çəkic" medalı təqdim edilmişdir.

***1981, 20 noyabr*** - Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

***1983*** - Azərbaycan SSR Səhiyyə Nazirliyinin qərarına əsasən, Elmi-Tədqiqat Kliniki Təbabət İnstitutunun adı dəyişdirilərək Elmi-Tədqiqat Kliniki Eksperimental Cərrahiyyə İnstitutu adlandırılmış və

instituta M.Topçubaşovun adı verilmişdir.

*1986* - Azərbaycan SSR Səhiyyə Nazirliyinin əmrinə əsasən yaradılmış Azərbaycan Təbabət Muzeyinin 7-ci zalında akademik Mustafa Topçubaşovun həyat və fəaliyyətini əks etdirən stend və vitrin daimi nümayiş etdirilir.

*1995, 1 fevral* - Azərpoçt tərəfindən Mustafa Topçubaşovun 100 illik yubileyinə həsr olunmuş poçt markası buraxılmışdır;

- Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tabeliyində olan sərnişin gəmilərindən biri "Akademik Topçubaşov" adlandırılmışdır;

*31 iyul* - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Akademik Mustafa Ağabəy oğlu Topçubaşovun 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır;

*dekabr* - Mustafa Topçubaşovun Azərbaycan Tibb Universitetinin III Cərrahi Xəstəliklər kafedrasındakı iş otağında (indiki M.Ə.Əfəndiyev adına 2 saylı şəhər xəstəxanası) alimin şərəfinə Xatirə muzeyi yaradılmışdır.

*1997* - Təsisçisi olduğu və rəhbərlik etdiyi Elmi-Tədqiqat Kliniki Eksperimental Cərrahiyyə İnstitutunun adı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin qərarı ilə dəyişdirilərək "Akademik M.A.Topçubaşov adına Respublika Elmi Cərrahiyyə Mərkəzi" adlandırılmışdır.

*2010* - Azərbaycan Tibb Universitetinin yaradıl-

masının 80 illik yubileyi münasibətilə M.Topçubaşovun 5 cildlik "Xüsusi Cərrahiyyə" kitabı nəfis tərtibatda yenidən nəşr edilmişdir.

***2011*** - "Yaddaş" sənədli filmlər studiyasında dövlət sifarişi əsasında M.Topçubaşovla bağlı Azərbaycan Respublikasının xalq artisti Yalçın Əfəndiyevin rejissorluğu ilə "Mustafa Topçubaşov. Əsrin fonunda portret" adlı sənədli film çəkilmişdir.

***2015*** - Bakının Nəsimi rayonunda küçələrdən birinə akademik Mustafa Topçubaşovun adı verilmişdir;

- Gəncə, Tovuz, Bərdə, Şirvan, Biləsuvar və Mingəçevir şəhərlərində də mərkəzi küçələrdən bəziləri Mustafa Topçubaşovun adını daşıyır;

***16 dekabr*** - Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin təşkilatçılığı ilə akademik Mustafa Topçubaşovun 120 illiyinə həsr edilmiş elmi sessiya keçirilmişdir.

***2025, 1 may*** - Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti "Akademik Mustafa Topçubaşovun 130 illiyi haqqında" qərar qəbul etmişdir;

***10 iyun*** - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Akademik Mustafa Topçubaşovun 130 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır;

***18 iyul*** - Azərbaycan Milli Elmlər Akademiyası, AR Səhiyyə Nazirliyi və Qərbi Azərbaycan

İcmasının birgə təşkilatçılığı ilə AMEA-nın Rəyasət Heyətində akademik Mustafa Topçubaşovun 130 illiyinə həsr olunmuş elmi konfrans keçirilmişdir;

***24 sentyabr*** - AMEA, AR Səhiyyə Nazirliyi və Akademik M.A.Topçubaşov adına Respublika Elmi Cərrahiyyə Mərkəzinin birgə təşkilatçılığı ilə akademik M.Topçubaşovun 130 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir;

***8 oktyabr*** - Azərbaycan Milli Elmlər Akademiyası və AR Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə əsas yubiley tədbiri keçiriləcəkdir;

***30-31 oktyabr*** - Azərbaycan Tibb Universitetində akademik Mustafa Ağabəy oğlu Topçubaşovun 130 illiyinə həsr olunmuş "Akademik irs 130: Cərrahiyyədə elmi və peşəkar yanaşmalar" adlı elmi-praktiki konfrans keçiriləcəkdir.

## MAIN DATES OF THE LIFE, SCIENTIFIC, EDUCATIONAL AND SOCIAL ACTIVITIES

Mustafa Aghabey oglu Topchubashov was born on August 5, 1895 in the Irevan city.

| | | |
|---|---|---|
| ***1904*** | - | He received his first education at the elementary school opened by Mirza Rza Gadimov, the grandson of the famous Azerbaijani artist Mirza Gadim Irevani. |
| ***1904-1914*** | - | He graduated from the Irevan Russian Men's Gymnasium with a gold medal (Ibadulla bey Muganlinsky's boarding house, located in the Dashli neighborhood of Irevan). |
| ***1914-1919*** | - | He received his higher education at the Medical Faculty of Kiev Medical University (Ukraine). |
| ***1919-1922*** | - | He worked as a resident at the Surgery Clinic of the Medical Faculty of Baku University (now Baku State University). |
| ***1920-1981*** | - | He engaged in scientific and pedagogical activities at Azerbaijan State University and Azerbaijan State Medical Institute. |
| ***1922*** | - | He was sent to Nakhchivan, where he organized a hospital, an outpatient clinic, and paramedic stations in Ordubad at the suggestion of N.Narimanov. He performed the first official surgical operation in Nakhchivan. |
| ***1923-1927*** | - | He was appointed head of the Surgical |

Department of the Pasteur Hospital in Bayil, which mainly serves oil workers upon the recommendation of Professor A.Oshman;

- He was appointed head of the Surgical Hospital of the People's Commissariat of Health of the Azerbaijan SSR.

***1926-1927*** - He sent on a scientific mission to Germany (Berlin, Munich, Leipzig and other cities) to undergo a medical internship.

***1927-1930*** - He continued his work as an assistant at the Surgery Clinic of the Medical Faculty of Azerbaijan State University;

- He headed the 11th Surgical Corps of the Semashko Hospital. He was one of the first national personnel to be recruited to teach Surgery at the Faculty of Medicine.

***1930*** - He defended his doctoral dissertation on the "Clinical Profile, Pathology, and Surgical Treatment of Malarial Splenomegaly" topic under the guidance of Professor A.Oshman;

- He received the scientific title of Professor;
- He created the Azerbaijan Society of Surgeons.

***1930-1939*** - He was the head of the Azerbaijan Society of Surgeons.

***1930-1981*** - He was the head of the Department of Facultative Surgery (now the III

| | | |
|---|---|---|
| | | Department of Surgical Diseases) of the Azerbaijan State Medical Institute. |
| ***1936, 27 January*** | - | He was awarded the Order of the Red Star. |
| ***1936*** | - | He was awarded the Order of the Badge of Honor. |
| ***1937*** | - | He discovered the original method of anesthesia, injection essential oil anesthesia - analgesia for the first time in the history of world anesthesiology. This discovery became known as "Analgesin". |
| ***1939*** | - | He had a report on the “Application of essential oil painkillers in the treatment of traumatic shock” topic at the All-Union Session of Neurosurgeons held at the Moscow Central Scientific Research Institute of Neurosurgery; |
| | - | The Azerbaijan State Medical Institute published a collection of “Injection essential oil anesthesia” manuscripts of M.Topchubashov. |
| ***1940, 23 Aprel*** | - | He was awarded the honorary title of Honored Scientist of the Azerbaijan SSR. |
| ***1941*** | - | He was appointed chief surgeon of the Evacuation Hospitals Department of the People's Commissariat of Health of Azerbaijan. Professor M.Topchubashov for the first time applied the profiling of military-field surgery in the hospital system, and thanks to this, specialized evacuation hospitals (thoracic, neurosur- |

| | | |
|---|---|---|
| | | gery, urology, traumatology) were created during the war; |
| | - | A universal device was created and successfully applied, allowing to determine the localization of foreign bodies in the body based on the idea of M.Topchubashov; |
| | - | He was awarded the honorary title of Honored Doctor of the Azerbaijan SSR. |
| ***1942, 3 March*** | - | He was awarded the Order of the "Red Star". |
| ***1943, 26 March*** | - | He was awarded the Stalin (State) Prize. |
| ***1944, 4 November*** | - | He headed the Surgery Department of the Japaridze Hospital in the Sabunchu districts of Baku; |
| | - | He was awarded the Order of Lenin. |
| | - | He was awarded the Medal "For the Defense of the Caucasus". |
| ***1945*** | - | He was a co-founder of the Academy of Sciences of the Azerbaijan SSR together with 14 other prominent scientists; |
| | - | He was elected a full member of the Academy of Sciences of the Azerbaijan SSR; |
| | - | He discovered the method of analgesia: at the meeting of the Pharmacology Committee of the Scientific Medical Council of the former USSR People's Commissariat of Health, permission was granted to produce an essential oil mixture under the name "Analgesin"; |

- He was awarded the badge "Excellent Worker of the USSR Emergency Medical Service".

***1945-1950*** - He was the chief surgeon of the Ministry of Health of the Azerbaijan SSR.

***1945-1951*** - He served as Chairman of the Department of Biology and Agricultural Sciences of the Academy of Sciences of the Azerbaijan SSR.

***1946, 25 February*** - He was awarded the Order of the "Red Banner of Labour";

- He was awarded the Medal "For the Victory over Germany in the Great Patriotic War of 1941–1945";
- He was awarded the Medal "For Labor Valor".

***1946*** - The Scientific Research Naftalan Problem Laboratory and the Institute of Experimental Clinical Medicine (now the Republican Scientific Surgery Center named after Acad. M.A.Topchubashov) were organized on his initiative and under his direct leadership.

***1947*** - He was elected a member of the Communist Party of the Soviet Union;

- He was elected a deputy of the Supreme Soviet of the Azerbaijan SSR.

***1947-1949*** - He worked as the director of the Institute of Experimental Clinical Medicine of the Azerbaijan Academy of Sciences.

| | | |
|---|---|---|
| ***1948*** | - | He was elected a Corresponding Member of the USSR Academy of Medicine. |
| ***1949, 10 May*** | - | The 30th Anniversary of M.Topchubashov's scientific, medical and public activities was celebrated in the great hall of the Azerbaijan Academy of Sciences. |
| ***1950-1981*** | - | He served as the Chairman of the Azerbaijan Peace Defense Committee, was a member of the Soviet Peace Defense Committee, and the Committee for Solidarity with Asian and African Countries. |
| ***1951, 6 November*** | - | He was awarded the Order of "Lenin" (2nd time). |
| ***1951-1956*** | - | He served as Vice-president of the Azerbaijan Academy of Sciences. |
| ***1952*** | - | He was elected a Corresponding Member of the Bulgarian Academy of Sciences; |
| | - | He was appointed a delegate to the Second World Peace Congress held in Vienna; |
| | - | He was elected a section member of the World Committee for the End of the War in Korea; |
| | - | He participated in the conference held in Vienna through the Soviet Peace Defense Committee. |
| ***1953*** | - | He was elected a member of the delegation from the Soviet Union within the framework of the Bulgarian-Soviet Month. |

| | | |
|---|---|---|
| ***1953-1955*** | - | He was the Chairman of the Supreme Soviet of the Azerbaijan SSR. |
| ***1954*** | - | He was elected a member of the World Association of Surgeons at the XI International Congress of Surgeons held in Lisbon; |
| | - | He created an operating room in the department where he worked at the Azerbaijan State Medical Institute; |
| | - | He was appointed Chairman of the Supreme Soviet of the Azerbaijan SSR of the third convocation; |
| | - | He was elected a member of the All-Union and International Association of Surgeons. |
| ***1956*** | - | His report on "Treatment of Gallbladder Disease with Essential Oil Anesthesia" at the International Congress of Surgeons in Berlin, Germany was highly appreciated by experts; |
| | - | A scientific manuscript based on the report was published in an international medical journal published in Leipzig that year; |
| | - | He visited Syria; |
| | - | He visited Lebanon. |
| ***1959*** | - | He was awarded the Silver Medal of the World Peace Council; |
| | - | He was awarded the Order of Honor of the Soviet Peace Defense Committee. |
| ***1959, 15*** | - | He was elected Vice-president of the |

| | | |
|---|---|---|
| ***September*** | | Academy of Sciences of the Azerbaijan SSR. |
| ***1959-1981*** | - | He was the Vice-president of the Academy of Sciences of the Azerbaijan SSR. |
| ***1960*** | - | He was elected a Full Fember of the USSR Academy of Medical Sciences; |
| | - | He was an Honorary Chairman of the Surgical and Urological Societies. |
| ***1962*** | - | He was on a trip to Germany; |
| | - | He was on a trip to Africa. |
| ***1963*** | - | The scientific session held at the A.V.Vishnevsky Research Institute of Surgery of the USSR Academy of Medical Sciences was dedicated to M.Topchubashov's discovery called "Cardiac analgesia"; |
| | - | By the decision of that session, M.Topchubashov was awarded the A.V.Vishnevsky Prize and Memorial Medal for his services in the development of medical science, especially in the development of the method of analgesia injection. |
| ***1965*** | - | The 70th Anniversary of his birth and the 45th Anniversary of his scientific and pedagogical activity were solemnly celebrated. |
| ***1965*** | - | He was awarded the Order of Lenin (3rd time). |

| | | |
|---|---|---|
| ***1967-1971*** | - | He was the Chairman of the Supreme Soviet of the Azerbaijan SSR. |
| ***1969*** | - | He was on a visit to Italy. |
| ***1970*** | - | He was awarded the medal "For Valiant Labor on the occasion of the 100th Anniversary of the birth of V.I.Lenin"; |
| | - | He was on a scientific mission to Bulgaria; |
| | - | He was awarded the Order of "Saints Cyril and Methodius", 1st degree. |
| ***1971, 20 July*** | - | He was awarded the Order of the October Revolution. |
| ***1975*** | - | The 80th Anniversary of his birth and the 55th Anniversary of his scientific and pedagogical activity were solemnly celebrated by the Azerbaijani government and the Presidium of the USSR Academy of Medical Sciences. |
| ***1975, 4 August*** | - | He was awarded the honorary title of Hero of Socialist Labor; |
| | - | He was awarded the Order of Lenin (4 times); |
| | - | He was awarded the "Hammer and Sickle" medal. |
| ***1981, 20 November*** | - | He died in Baku and was buried in the I Alley of Honor. |
| ***1983*** | - | The Scientific-Research Institute of Clinical Medicine was renamed the Scientific-Research Institute of Clinical Experimental Surgery and the institute was named after M.Topchubashov according to the |

decision of the Ministry of Health of the Azerbaijan SSR.

***1986*** - A stand and showcase reflecting the life and work of Academician Mustafa Topchubashov are permanently exhibited in the 7th hall of the Azerbaijan Medical Museum, established by order of the Ministry of Health of the Azerbaijan SSR.

***1995, 1 February*** - A postage stamp dedicated to the 100th Anniversary of Mustafa Topchubashov was issued by Azerpocht;
- One of the passenger ships of the Azerbaijan Caspian Shipping Company was named “Academician Topchubashov”;

***31 July*** - President of the Republic of Azerbaijan Heydar Aliyev signed an Order “On marking the 100th Anniversary of the birth of Academician Mustafa Aghabey oglu Topchubashov”;

***December*** - A Memorial Museum was established in honor of the scientist in Mustafa Topchubashov’s office at the III Department of Surgical Diseases of the Azerbaijan Medical University (now the M.A.Efendiyev City Hospital No. 2).

***1997*** - The name of the Scientific-Research Clinical Experimental Surgery Institute, which he founded and headed, was changed to the "Republican Scientific Surgery Center named after Academician M.A.Topchubashov" by the decision of

the Ministry of Health of the Republic of Azerbaijan.

***2010*** - M.Topchubashov's 5-volume book "Special Surgery" has been republished in an elegant design on the occasion of the 80th Anniversary of the establishment of the Azerbaijan Medical University.

***2011*** - A documentary film titled "Mustafa Topchubashov. Portrait against the Background of the Century" was shot at the "Yaddash" documentary film studio on the basis of a state order and directed by People's Artist of the Republic of Azerbaijan Yalchin Efendiyev.

***2015*** - One of the streets in the Nasimi district of Baku was named after academician Mustafa Topchubashov;

- Some of the central streets in the Ganja, Tovuz, Barda, Shirvan, Bilasuvar and Mingachevir cities are also named after Mustafa Topchubashov;

***16 December*** - A scientific session dedicated to the 120th Anniversary of academician Mustafa Topchubashov was held under the organization of the Presidium of the Azerbaijan National Academy of Sciences.

***2025,***
***1 May*** - The Presidium of the National Academy of Sciences of Azerbaijan adopted a resolution "On the 130th Anniversary of Academician Mustafa Topchubashov";

***10 June*** - The President of the Republic of

Azerbaijan Ilham Aliyev signed an Order "On marking the 130th Anniversary of the birth of Academician Mustafa Topchubashov";

***18 July*** - A scientific conference dedicated to the 130th Anniversary of Academician Mustafa Topchubashov was held at the Presidium of ANAS, with the joint organization of the Azerbaijan National Academy of Sciences, the Ministry of Health of the Republic of Azerbaijan and the West Azerbaijan Community;

***24 September*** - An international scientific and practical conference dedicated to the 130th Anniversary of Academician M.Topchubashov was held with the joint organization of the ANAS, Ministry of Health of the Republic of Azerbaijan and the Republican Scientific Center of Surgery named after Academician M.A.Topchubashov;

***8 October*** - The main anniversary event will be held with the joint organization of the Azerbaijan National Academy of Sciences and the Ministry of Health of the Republic of Azerbaijan;

***30-31 October*** - A scientific-practical conference dedicated to the 130th Anniversary of Academician Mustafa Aghabey oglu Topchubashov entitled "Academic Heritage 130: Scientific and Professional Approaches in Surgery" will be held at Azerbaijan Medical University.

## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN GÖRKƏMLİ ALİM, TƏBİB VƏ İCTİMAİ XADIM MUSTAFA TOPÇUBAŞOVUN 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏCLİSDƏ ÇIXIŞI

Hörmətli xanımlar və cənablar!

Mustafa bəy Topçubaşovun anadan olmasının 100 illik yubileyi Azərbaycan xalqının elminin, təhsilinin, səhiyyəsinin, mədəniyyətinin bayramıdır. Bu bayram münasibətilə sizi ürəkdən təbrik edirəm. Mustafa bəy Topçubaşovun davamçılarına, bütün Azərbaycan xalqına və vətəndaşlarına elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafında uğurlar arzulayıram. Mustafa bəy Topçubaşovun həyat yolu, yaradıcılığı, onun bizim üçün və gələcək nəsillər üçün qoyduğu irs milli sərvətimiz və milli iftixarımızdır.

XX əsr sona çatır. Bu əsrdə xalqımız bir çox mərhələlərdən, sınaqlardan, imtahanlardan keçib və nəhayət, öz milli azadlığına, dövlət müstəqilliyinə nail olubdur. Bütün bu mərhələlərdə Azərbaycan xalqını yaşadan, irəliyə aparan, xalqımıza güc, ruh verən Azərbaycan xalqının görkəmli şəxsiyyətləri, böyük alimləri və dahi insanları olmuşlar.

Mustafa bəy Topçubaşov XX əsrdə Azərbaycanın ən görkəmli şəxsiyyətlərindən biridir. O, İrəvan şəhərində, qədim Azərbaycan torpağında dünyaya göz açıb, Kiyev Universitetini bitirib, sonra isə Bakıya gəlib və burada fəaliyyətə başlamışdır. Çox maraqlıdır ki, o, 24 yaşı olanda Azərbaycanın tarixində ilk dəfə olaraq yaranmış Bakı

Dövlət Universitetində azərbaycanlı müəllim kimi dərs deməyə başlamışdır.

Məlumdur ki, o vaxt Azərbaycanda ilk universitet yaranarkən milli kadrlarımız çox az idi. Universiteti yaradanlar Rusiyadan və başqa ölkələrdən professorlar, mütəxəssislər dəvət etmişdilər. Ancaq eyni zamanda, təhsil almış və yetişmiş azərbaycanlılar da var idi. Gənc Mustafa bəy də o vaxt fəaliyyətə başlayıbdır. Yəni o, gənclik dövründən daim irəliyə baxmış və böyük təhsil almağa çalışmışdır, xalqına xidmət etməyi öz qarşısına məqsəd qoymuş və buna nail olmuşdur. Mustafa bəy Topçubaşov o vaxtdan həyatının son dəqiqələrinə qədər fəaliyyət göstərib, işləyib, çalışıbdır və demək olar ki, XX əsrin əvvəlindən sonuna qədər Azərbaycanın elmi, təhsili, səhiyyəsi, mədəniyyəti onun adı və fəaliyyəti ilə, xalqımıza bəxş etdiyi elmi əsərləri ilə bağlıdır.

Mustafa bəy Topçubaşov nadir bir sima və nadir bir insan olmuşdur. Adamlar üçün ən vacib olan sahə - onların sağlamlığının qorunması, insanların xəstəliklərdən xilas olması, sağlam insan yetişdirilməsi cəmiyyət üçün həm keçmişdə, həm indi, həm də gələcəkdə mühüm olan sahədir. Mustafa bəy Topçubaşovun öz fəaliyyətini məhz bu sahəyə həsr etməsi heç də təsadüfi deyildir. Bu onun daxili mənəviyyatı ilə bağlıdır. Bütün həyatı, yaradıcılığı, fəaliyyəti göstərir ki, o, şüurlu olaraq bu sənətdən başlayıbdır. Ancaq yaşadıqca, yaratdıqca onun fəaliyyət dairəsi genişlənib, böyük alim, ictimai-siyasi xadim olubdur. Azərbaycan xalqının formalaşmasında, milli təfəkkürün inkişa-

fında, xalqımızın ağır xəstəliklərdən qurtarmasında, elmimizin, təhsilimizin inkişafında böyük xidmətlər göstəribdir. Onun xidmətləri məlumdur. Azərbaycan xalqının qazandığı böyük nailiyyətlərdə möhkəm yeri də hamıya məlumdur. Biz bu gün buraya toplaşaraq, onun xidmətlərinə yüksək qiymət verərək, xatirəsinin nə qədər əziz olduğunu nümayiş etdiririk.

Biz çox vaxt yazıçıların, şairlərin, mədəniyyət xadimlərinin yubileylərini qeyd edirik. Bu, təbiidir. Çünki əsrlər boyu yaşamış, yaratmış Azərbaycan xalqı öz tarixində böyük yazıçılarla, şairlərlə, mədəniyyət xadimləri ilə məşhur olubdur. Keçmiş əsrlərdə də böyük alimlərimiz yaşayıblar. Bu gün biz məhz böyük alim, müəllim, ictimai-siyasi xadim Mustafa bəy Topçubaşovun 100 illik yubileyinə toplaşmışıq. Bu, onu göstərir ki, elmə, müəllimliyə, səhiyyəyə xalqımızın hörmət və ehtiramı mənəviyyatın bütün sahələrinə olan hörmət və ehtiramdan az deyildir. Biz sentyabr ayında böyük bəstəkar, dahi filosof Üzeyir Hacıbəyovun 110 illik yubileyini qeyd etdik. Bu gün Mustafa bəy Topçubaşovun 100 illik yubileyini qeyd edirik. Bu iki böyük şəxsiyyət, iki böyük sima XX əsrdə demək olar ki, yan-yana gedib, xalqımızı birlikdə irəli aparıb, birlikdə çalışıb və özləri də ucalıblar, xalqı da ucaldıblar. Özləri də məşhurlaşıb - dünyada məşhur olan şəxsiyyətlərə çevrilib, xalqımızı da məşhurlaşdırıblar, dünyaya tanıdıblar. Buna görə onların xidmətləri əvəzsizdir.

Mustafa bəy Topçubaşov elm, təhsil, səhiyyə ilə məşğul olduğu qədər də ictimai sahədə böyük xidmətlər gös-

tərmişdir. Azərbaycan ictimaiyyəti arasında Mustafa Topçubaşov həmişə çoxsahəli ictimai fəaliyyəti ilə məşhur olubdur. O, Azərbaycan parlamentinin uzun illər üzvü olmuş, Ali Sovetə xeyli müddət sədrlik etmiş, keçmişdə Sovetlər İttifaqı Ali Sovetinin deputatı olmuşdur.

Təkcə beynəlxalq elmi konfrans və simpoziumlarda çıxışları ilə yox, İkinci dünya müharibəsindən, Böyük Vətən müharibəsindən sonra dünyada sülhün saxlanması və qorunması üçün ümumdünya təşkilatlarında fəaliyyət göstərib, bu təşkilatların üzvü olubdur. Mustafa bəy Topçubaşov Azərbaycan Sülhü Müdafiə Komitəsi yaranandan ömrünün sonuna qədər bu mötəbər sahəyə rəhbərlik edibdir.

Mustafa bəy Topçubaşov Böyük Vətən müharibəsi zamanı, dünyanı faşizm təhlükəsi bürüdüyü bir vaxtda - 1942-ci ildə Kommunist Partiyasına daxil olubdur və ömrünün sonuna qədər bu partiyanın üzvü olubdur. O, bu partiyaya xidmət edərkən xalqına, millətinə, Vətəninə, torpağına xidmət edibdir. Ona görə də Mustafa Topçubaşov həmişə yüksək qiymətləndirilib, həmişə mötəbər məclislərin yuxarı tərəfində oturub, ən yüksək vəzifələr tutmuş adamlar ona həmişə hörmət və ehtiramla yanaşıblar.

Mustafa bəy Topçubaşov bu fəaliyyətlərinə görə böyük mükafatlar alıbdır, ordenlərə, dövlət mükafatlarına layiq görülübdür. 1975-ci ildə onun 80 yaşı tamam olan zaman o vaxtlar Sovet İttifaqının ən yüksək mükafatına - Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Bilirsiniz, tarixə düzgün qiymət vermək, onu düzgün təhlil etmək lazımdır. Biz yaşadığımız uzun bir dövrü silib-poza

bilmərik. Əgər onu silib atsaq, onda gərək Mustafa bəy Topçubaşovu tariximizdən tamamilə çıxaraq. Mustafa bəy Topçubaşovun həyatı, yaradıcılığı, Azərbaycan xalqı qarşısında xidmətləri o dövrdə məhz həmin dövlətin tərkibində, həmin cəmiyyətin içərisində, həmin ictimai-siyasi rejimin tərkibində olmuşdur. Bu, eyni zamanda Azərbaycan xalqına da xidmətdir. Əgər o vaxtlar hamımız bir dövlətin tərkibində idiksə, xalqımızın ayrı-ayrı nümayəndələrinin bu dövlətin mükafatları ilə fərqləndirildiyini görürüksə, deməli, bu bizim Azərbaycan dövlətinin, Azərbaycan Respublikasının mükafatıdır. Mustafa bəy Topçubaşov bütün həyatı və fəaliyyəti ilə Azərbaycan xalqını bugünkü gün üçün hazırlayıbdır.

Bizim xalqın əsrin əvvəlində olan təhsil, elm, mədəniyyət səviyyəsini təsəvvürünüzə gətirin və onu bu günlə müqayisə edin. Nə qədər fərq görünür! Biz nə qədər irəliləmişik, dünya səviyyəsinə nə qədər çatmışıq! Bax, bunların hamısında Topçubaşov kimi insanların, böyük şəxsiyyətlərin rolu unudulmazdır, əvəzsizdir. Beləliklə, Topçubaşov 62 illik fəaliyyətində, yaradıcılığında Azərbaycan xalqının inkişaf etməsi üçün, Azərbaycanın elmi potensialının yaranması üçün, xalqımızın bu günə gəlib çıxması üçün, Azərbaycan xalqının öz müstəqilliyini əldə etmək imkanının yaranması üçün çalışıbdır.

Bu il biz Azərbaycan Elmlər Akademiyasının yaranmasının 50 illik yubileyini qeyd edirik. Bu, Azərbaycan xalqının tarixində böyük bir səhifədir. Çoxəsrlik tariximizdə böyük elmimiz, alimlərimiz olubdur. Ancaq Azərbay-

can elmi heç vaxt bu qədər mütəşəkkil və bu qədər qüvvətli, güclü, çoxsahəli olmayıbdır. 50 il ərzində Azərbaycan Elmlər Akademiyası bütün elmi potensialı özündə cəmləyərək xalqımızın elm, yaradıcılıq sahəsində nəyə qadir olduğunu dünyaya göstəribdir.

Xalqımız istedadlı xalqdır, ağıllı xalqdır. Xalqımızın istedadlı, ağıllı, elmli, zəkalı olmasını biz Mustafa bəy Topçubaşov kimi adamların şəxsiyyətində görürük, bunu dünya da görür. Mustafa bəy Topçubaşov ömrünün 30 ilini Azərbaycan Elmlər Akademiyasının yaranmasına və inkişafına sərf edibdir. O, böyük bir məktəb - cərrahlıq məktəbi, təbiblər məktəbi, alimlər məktəbi yaradıbdı. Amma Respublika Elmlər Akademiyasının 50 illik tarixinin 30 ili ərzində Mustafa bəy Topçubaşov onun rəhbərliyində duran adam, akademiyanın vitse-prezidenti olmuşdur.

Mənim Mustafa bəy Topçubaşovla uzun illər şəxsi tanışlığım, bizim yaxşı münasibətimiz olubdur. Onu yaxından tanımışam. Xüsusən 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladığım gündən mən Mustafa bəy Topçubaşovla əməkdaşlıq etmişəm. Bizim çoxlu görüşlərimiz olubdur. Azərbaycan elminin səhiyyəsinin, mədəniyyətinin inkişafına dair onunla çoxlu fikir mübadiləsi aparmışam. O insanda mən həmişə nuranilik, alicənablıq, yüksək ziyalılıq gördüm. Bəzən mənə elə gəlirdi ki, - yəqin, bu bir həqiqətdir, – Mustafa bəy Topçubaşov anadan ziyalı kimi doğulubdur. Çünki o, əsl ziyalı adam idi. Onun ziyalılığı təkcə elmində də yox, xasiyyətində, davranışında, insanla-

ra münasibətində idi - hər bir sahədə onun ziyalılığı, alcənablığı özünü parlaq surətdə göstərirdi.

O həm də olduqca təvazökar bir adam idi. Mustafa bəy Topçubaşov haqqında şübhəsiz ki, onunla bir yerdə işləyənlər, tələbələri çoxlu xatirələr yazıblar və indən sonra da yazacaqlar. Mənim də çoxlu xatirələrim var. Ancaq vaxtınızı çox almaq istəmirəm. Xatirimdədir, bir dəfə bir nəfər mənim yanıma gəlib dedi ki, Mustafa bəy Topçubaşov akademiyada özünü elə aparır ki, elə bil heç vitse-prezident deyildir. Mən dedim nə olubdur ki? O dedi ki, Mustafa bəy Topçubaşov akademiyanın bufetində oturur, kefir, bir dənə də peraşki götürür və camaat, hamı ilə birlikdə orada yemək yeyir. Mən dedim burada nə var ki? O dedi: akademikdir, professordur, akademiyanın vitse-prezidentidir, hamı ilə bərabər gəlib bufetdə oturur. Mən təəccübləndim.

Demək, insanlar başqa cür də düşünürlər. Ancaq eyni zamanda - mən Mustafa bəy Topçubaşovun təvazökarlığını bilirdim - bu, mənim xatirimdə qaldı. Nə qədər təvazökar adam idi o! Bu, onun alicənablığının, ziyalılığının, təvazökarlığının parlaq təzahürüdür. İnsanlar var ki, bir xırda vəzifə tutan kimi ya evində, ya dövlət işində özlərinə xüsusi xidmət tələb edirlər, özləri üçün cürbəcür şərait yaratmaq istəyirlər, işdən əvvəl və ya sonra ancaq bununla məşğul olurlar. Lakin xalqına bu qədər xidmət etmiş adam, həmin o Elmlər Akademiyasının bünövrəsini qoyanlardan biri bu cür təvazökar həyat keçirirdi.

Bir bu deyil. Ümumiyyətlə, onu tanıyanlar, onunla təmasda olanlar bilirlər ki, Mustafa bəy Topçubaşov nə qədər təvazökar, nə qədər insan adam olubdur. Yüz minlərlə adamın həyatını xilas edibdir, onlara şəfa veribdir. Xəstəliklərdən xilas edibdir, yaşadıbdır, nə qədər insana tərbiyə veribdir, təhsil veribdir və nəhayət, onun ən yüksək keyfiyyəti bundan ibarətdir ki, öz siması ilə, öz şəxsiyyəti ilə, öz həyat yolu və yaradıcılığı ilə bizim üçün - bugünkü və gələcək nəsillərimiz üçün böyük bir nümunə yaradıbdır. Bu, böyük bir sərvətdir.

Mustafa bəy Topçubaşov 1981-ci ildə vəfat etdi. Biz onu böyük təntənə ilə son mənzilə yola saldıq. Xatirimdədir, – bunu da deməyi lazım bilirəm, çünki belə şeylərdən ibrət dərsi götürmək lazımdır - bəziləri gəlib deyirdilər ki, Mustafa bəy Topçubaşov artıq qocalıbdır. Bəlkə o, istefaya getsin, yaxud kafedra müdirliyini başqa adama tapşırsın? Çünki belə adət var ki, kafedra müdirləri müəyyən bir yaşdan sonra kafedrada professor vəzifəsinə keçirlər və kafedraya rəhbərliyi başqa adama verirlər. Onun ətrafında belə sözlər danışan, belə təkliflər verən adamlar var idi. Akademiyanın vitse-prezidenti olduğu vaxt da deyirdilər. Bunların hamısı mənim xatirimdədir. Mən bunları eşidərkən həmişə bir cavab vermişəm: o dediyiniz qanun-qaydalar Mustafa bəy Topçubaşova aid deyil. O elə bir insandır ki, elə bir fədakar adamdır ki, həyatının, yaşının son dəqiqəsinə qədər göstərdiyi fəaliyyət bizim üçün gərəkli və əhəmiyyətlidir. Bəli, Mustafa bəy Topçubaşov həyatının

son dəqiqəsinə qədər fəaliyyətdə oldu. Xalqına xidmət etdi və şərəflə də dünyasını dəyişdi.

Mustafa bəy Topçubaşovun həyatı, yaradıcılığı, qoyduğu irs bizim üçün böyük təcrübə mənbəyidir, böyük mənəviyyat mənbəyidir. Bir daha deyirəm ki, biz onunla fəxr edirik. Bu gün onun anadan olmasının 100 illik yubileyini təntənə ilə qeyd edərək biz elmimizə, mədəniyyətimizə yüksək qiymət verməyimizi nümayiş etdiririk. Eyni zamanda Azərbaycan xalqını yüksək səviyyəyə qaldırmış Mustafa bəy Topçubaşovun xatirəsinə hörmət və ehtiramımızı bildiririk. Mən Mustafa bəy Topçubaşovun xatirəsi qarşısında baş əyirəm və deyirəm ki, onun xatirəsi bizim üçün həmişə əziz olacaqdır, onun adı Azərbaycanın gələcək nəsilləri üçün örnək olacaq və daim yaşayacaqdır.

***

# TANINMIŞ ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ MUSTAFA AĞABƏY OĞLU TOPÇUBAŞOV HAQQINDA

# THE RENOWNED SCIENTIFIC AND CULTURAL FIGURES ABOUT MUSTAFA AGABEY OGLU TOPCHUBASHOV

## Həyat yoldaşının Mustafa bəy Topçubaşov haqqında xatirəsindən kiçik hissə

Mustafa bəy ilk baxışda çox dəqiq, səliqəli görünürdü. Amma mən onun vaxta qarşı qeyri-dəqiq olduğunu çox böyük ürəkağrısı ilə qəbul edirdim.

O, qeyri-adi dərəcədə sadə, nöqsansız, qüsursuz, təmiz və düzgün, müqabilində qarşı tərəfdən də bunları tələb edən bir şəxs idi.

Mustaya bəy üçün həkimlik sadəcə sənət deyil, insanların köməyinə çatmaq, onları sağlamlıqlarına qovuşdurmaq səadət idi. Nəinki Bakıdan, başqa şəhərlərdən, rayonlardan da yanına xəstələr gəlirdi.

Ətrafında hər zaman onlarca insan dolaşar, amma o, içinə qapanan biri kimi düşüncə və planlarını daim özündə saxlayardı. Öyünülməyə nifrət edərdi.

Vətənə və millətə sevgi və xidmət haqqında danışmazdı, lakin bununla belə bütün həyatı sevgidən ibarət idi.

**Reyhan xanım TOPÇUBAŞOVA,**
*Azərbaycanın ilk qadın rəssamı,*
*Əməkdar incəsənət xadimi*

***

### Tibb üzrə fəlsəfə doktoru, Əməkdar müəllim Zemfira xanım Topçubaşovanın atası Mustafa bəy Topçubaşov haqqında xatirələri

Atam akademik Mustafa bəy Topçubaşov irəvanlı idi. Özü danışardı ki, hələ XV-XVI əsrlərdə bizim nəslin nümayəndələrinin İrəvanda yaşadıqları barədə məlumatlar var, Topçubaşovlar sonralar müxtəlif şəhərlərə səpələniblər. Atam barəsində yazılan bir kitabda onun bağban olduğu qeyd edilib. Elə biz uşaqlar da Ağa bəy babamızı bağban bilirdik. Sovet rejiminin qadağaları bəzən hər kəsi öz adı, ünvanı ilə çağırmağa imkan vermirdi. O zaman da belə olmuşdu.

Əslində, babam İrəvanın əsilli-köklü nəsillərindən birinin nümayəndəsi idi. İrəvan yaxınlığındakı Göykümbət kəndi Topçubaşovların ata-baba malikanəsi imiş. Babamgilin İrəvan şəhərində də mülkləri olub. Həmin mülkdə yaşayıblar.

Ata babam Ağa bəy olduqca sakit, təmkinli insan idi. Ondan fərqli olaraq, ata nənəm Fatma xanım hökmlü, sərt idi. Onların dörd oğlanları olub – Rza bəy, Mustafa bəy, Mehdi bəy və Məhəmməd bəy. Dördü də uşaqlıqdan bacarıqlı, oxumağa meyilli olub. Rza bəy hüquqşünas, Mehdi bəy iqtisadçı, Məhəmməd bəy energetik olub. Ailənin ikinci oğlu olan atam – Mustafa bəy də qardaşları kimi ilk təhsilini İrəvanda alıb. Tanınmış Azərbaycan rəssamı Mirzə Qədim İrəvaninin nəvəsi Mirzə Rza Qədimovun açdığı ibtidai məktəbdə oxuyub. 1904-cü ildə oranı başa vurub, gimnaziyaya daxil olub. 1914-cü ildə də gimnaziyanı bitirib Rusiyada ali təhsil almaq istəyib. Valideynlərinin, xüsusilə anasının Mustafa bəyi dünyanın qarışıq vaxtında uzaq məmləkətə göndərməyə ürəyi gəlməyib. Onları çətinliklə razı salıb Rusiyaya yollanıb. 1914-cü ildə Kiyev Dövlət Universitetinin Tibb fakültəsinə qəbul olunub. O, çox gənc yaşlarından yaxşı həkim olmaq istəyib. Buna görə bəziləri kimi oxumağı ikinci plana keçirib vaxtını əyləncələrə həsr etməyib. Ata-anasının onun yolunda əziyyət çəkmələrinə də qıymayıb. Onların göndərdikləri cib xərcliklərini tətillərdə evə gələndə geri qaytarıb. «Mən orada təkəm, aldığım təqaüdlə dolanaram».

Atamda ən çox xoşuma gələn cəhətlərdən biri də bu idi: o, heç vaxt iradəsini çətinliklərə təslim etməz, məqsədindən dönməzdi. O zaman da belə olub. Yeni açılmış Azərbaycan Dövlət Universitetində işləməyə gəlmiş professor Oşmanla görüşüb. Onun göndərişi ilə universitetin Cərrahiyyə kafedrasında ordinator kimi işə qəbul edilib.

Tezliklə universitetin Tibb fakültəsinin klinikası açılıb. Klinikanın dördüncü mərtəbəsində yaşamaq üçün atama balaca otaq da verilib. Bir müddət sonra o, Respublika Səhiyyə Komissarlığı tərəfindən Naxçıvana ezam olunub. Bacarıqlı həkim kimi orada tezliklə tanınıb.

Bir neçə ay sonra Naxçıvan Xalq Səhiyyə Komissarlığından aldığı tələbnamə ilə Bakıya dönüb. Atam ailəsini də bu şəhərə gətirib. Yas içindəymişlər. İtkiləri böyük imiş…

Atam həmişə deyirdi, ora bizim torpağımızdır, İrəvanda ermənilər bir zurnaçılar idi, bir də faytonçular. Ancaq erməni fitnəkarlığı onun ailəsini də doğma İrəvanda yaşamaqdan məhrum edib.

Ermənilərin növbəti hücumu onların ailəsinə də müsibət gətirmişdi. Bir gün atını minib gedən Rza bəy geri qayıtmamışdı. Ermənilər onu tutublar, vəhşicəsinə qətlə yetiriblər, sonra atına bağlayıblar. Vəfalı atı birbaş evə gəlib. Bu mənzərəni görən nənəm böyük sarsınıtı keçirib… Əmimi dəfn ediblər. Əliqanlı ermənilər növbəti qurbanlar axtarırmışlar. Onda məcburiyyət qarşısında qalıb İrəvandan köçüblər. Atam onları Naxçıvana aparıb. Əmimin faciəsi hamısını için-için qovururmuş. Nənəmi isə sakitləşdirmək mümkün deyilmiş. Atam bacardığı qədər onlara dayaq olmaq istəyib. Bakıya dönəndə anasıgili özü ilə gətirib.

O zaman atam təzə ailə qurubmuş. Evləndiyi xanımla – Reyhan xanımla tanışlıqlarının səbəbkarı keçmiş tələbə yoldaşı Yusif bəy olub. Yusif bəy bir dəfə bibisigilə qonaq gedəndə onu da aparıb. Mustaya bəy orada gördüyü gözəllər gözəli Reyhan xanıma aşiq olub. Bir müddət sonra

evləniblər. Universitetin klinikasındakı kiçik bir otaqda yaşayıblar.

Bir dəfə atam rayonların birindən qəbuluna gələn xəstə qadından soruşub: «Haranız ağrıyır? Şikayətiniz nədəndir?». Xəstə həyəcanla cavab verib: «Sən ki Topçubaşovsan, hər şeyi özün bilirsən. Daha məndən niyə soruşursan?». Atam yenə həmin sualı verib. Qadın təkidlə deyib: «Sən Topçubaşovsan, hər şeyi özün bilirsən». Atama xəstələr çox inanırdılar. Həkim üçün bunun böyük əhəmiyyəti var. Xəstə əgər həkiminə inanmırsa, sağalacağına ümidi də az olur. Onda onu müalicə etmək də asan olmur.

Xəstələri müayinə və müalicə etməyə o, öz həkimlik peşəsinin yalnız bir hissəsi kimi baxırdı. Həm də əhali arasında səhiyyə ilə bağlı təbliğat işləri aparır, yığıncaqlarda, cərrahların simpoziumlarında, iclaslarda iştirak edirdi. Onun iş yaxtı səhər saat 7-də başlayırdı. Axşamlar isə evə saat 7-dən tez gəlmirdi. Gecələr də gah xəstəxanada növbələrdə olur, gah təcili cərrahiyyə əməliyyatlarına çağrılırdı.

İllər keçirdi. Artıq evdə onun yolunu yalnız həyat yoldaşı yox, həm də üç övladı gözləyirdi. Ailəmizin ilki İbrahim bəy ana babamızın adını daşıyırdı. Biz əkiz qızlar – mən Zemfira və bacım Elmira ondan üç yaş kiçik idik. Ağlımız kəsəndən evdə ab-havanı belə gördük. Atam bütün günü məşğul idi. Evə gəlib yemək yeyəndən sonra iş masasının arxasına keçirdi. Ya da təcili xəstələrə baxmağa çağrılırdı. Atamın işləri çox olduğundan tərbiyəmizlə, təhsilimizlə, əsasən, anamız məşğul olurdu. O bizi tez-tez muzeyə, teatra aparırdı. Anam özü də tanınmış rəssam,

Əməkdar incəsənət xadimi idi. Evimizdə xüsusi xidmətçilər, sürücülər qulluq göstərirdi. Atam evə gələndə birinci onların vəziyyəti ilə maraqlanırdı. Süfrə arxasına keçməmiş onların yemək yeyib-yemədiklərini xəbər alırdı.

Məişət söhbətləri, qayğıları onu düşündürməzdi. Anam süfrə arxasında həmişə gileylənirdi ki, sənin üçün bu qədər əziyyət çəkilir, bir dəfə də olsun, yeməyin yaxşı, ya pis olduğunu söyləmirsən, belə çıxır ki, sənin üçün çəkilən zəhməti qiymətləndirmirsən. Atam ona etiraz edirdi: «Mənə görə narahat olmayın. Sizə nə asandırsa, onu hazırlayın».

Atam dalğın görünür, sanki həmişə harasa tələsirdi. Fikri klinikada xəstələrinin yanında, ya da hansısa elmi məsələlərlə məşğul olduğu vaxtlar yaddaşsız insan təsiri bağışlayırdı. Bəzən əlindəki açarı, yaxud gözündəki eynəyi axtarırdı. Ancaq peşəkar yaddaşı heç zaman onu çətin vəziyyətdə qoymurdu. Bəzən yaxın adamlarının adlarını belə unutduğu halda 15-20 il qabaq müalicə elədiyi xəstəni yaxşı xatırlayırdı. Qəlbi hamıya yetəcək qədər mərhəmətli idi. Çox böyük mədəniyyət sahibiydi. Hamı ilə eyni cür hörmətlə davranırdı. Hər kəsdən qabaq özünə qarşı tələbkar idi. Bu keyfiyyətləri ona hər yerdə – evdə, işdə, dostları arasında böyük nüfuz qazandırırdı. Dostları çox idi. Üzeyir Hacıbəyov, Bülbül, Müslüm Maqomayev, Süleyman Rüstəm, Səməd Vurğun atama böyük hörmət bəsləyirdilər. Dostları, qohumlarımız da bilirdilər ki, Mustafa bəy iş başındadırsa, yaxud, iş masasının arxasına keçibsə, heç nə onun fikrini yayındıra bilməz. Azdanışan idi. Tele-

fonla çox danışmağı isə heç xoşlamazdı. Masasına toxunulanda, səliqəsi pozulanda, nəyi isə axtarıb tapmayanda səbirsiz olurdu. Əslində sakit təbiətli insan idi.

Atam insanlarda pis cəhətlər görmürdü və bəlkə də görmək istəmirdi. Hər kəsə yaxşılıq etməkdən qeyri, əlindən heç nə gəlməyən bu insana nə qədər qəribə görünsə də, düşmən münasibəti bəsləyənlər, paxıllığını çəkənlər, gözdən salmaq, aradan götürmək istəyənlər olub. Elələrinin ucbatından başı bəlalar çəkib. Xüsusilə 1930-cu illərdə atamı da «KQB»-nin həbsxanalarına, sürgünlərə sürükləmək istəyənlər tapılıb. Onu günahlandırmaq istəyənlər üçün səbəb tapmağa nə vardı? Elə Topçubaşov soyadı bunun üçün kifayət deyildi? Mən həmişə deyirəm, harada Topçubaşov soyadını daşıyan bir kəs varsa, deməli, bizim nəsildəndir. Fərqi yoxdur, bir-birimizlə şəxsi tanışlığımız var, yoxsa yox. Bu soyadı daşıyanların bir-birlərinə qohum olduqları Sovet hakimiyyəti illərində diqqətdən yayına bilməzdi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri olmuş Əlimərdan bəy Topçubaşova görə 1930-cu illərdə atam çox incidilib. Onu KQB-yə çağırıb soruşurmuşlar:

– Əlimərdan Topçubaşovla qohumsunuz?

– Yəqin ki, qohumuq. Amma mən onu şəxsən tanımıram.

Atamı gedər-gəlməzə göndərmək istəyənlərin niyyətləri boşa çıxıb. Azərbaycanın o zamankı birinci katibi Mircəfər Bağırovun Mustafa bəy Topçubaşova bəslədiyi hörmət bədxahlarının arzularını gözlərində qoyub. Mustafa bəyi

həbs etdirmək üçün onun hər sözündə, hər kəlməsində siyasi səhv axtaranların cavabını Mircəfər Bağırov verib: «Bizim bircə Topçubaşovumuz var. Onu rahat buraxın».

Atam repressiya illərinin bəlalarından sağ çıxdı. Amma bu misilsiz cərraha qarşı, təəssüflər olsun ki, sonralar da çox haqsızlıq edildi, incidildi. O isə nə bədxahlara boyun əydi, nə də fikrini onlarla məşğul etdi. Təbib Mustafa bəy Topçubaşovun yolunu gözləyən xəstələr, təbabət elminin onu çox maraqlandıran hələ açılmamış nə qədər sirləri var idi…

1941-ci ildə müharibə başlayanda atamın işi daha da artdı. Onu bəzən günlərlə görmür, harada olduğundan belə xəbər tuta bilmirdik. Atamın hələ müharibədən əvvəl yaratdığı yeni növlü ağrıkəsici – efir-yağ qarışığı o dövrdə çox döyüşçünü ölümün pəncəsindən xilas etdi.

Hələ 1930-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutu açılandan ömrünün sonunadək atam orada çalışdı. 1945-ci ildə yaradılan Azərbaycan SSR Elmlər Akademiyasının təsisçilərindən və ilk 15 həqiqi üzvündən biri də oldu. 1951-ci ildə Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti təyin edildi. SSRİ Tibb Elmləri Akademiyasınnı akademiki, Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü, Beynəlxalq Cərrahlar Assosiasiyasının üzvü, Azərbaycanın Əməkdar elm xadimi, SSRİ Dövlət mükafatı laureatı oldu.

Azərbaycan Tibb Universitetinin Fiziologiya kafedrasının professoru Qəhrəman Qəhrəmanov xatırlayır ki, 1977-ci ildə Beynəlxalq Nobel Mükafatları Komitəsindən

Bakıya Mustafa Topçubaşovun və onun ünvanına məktub gəldi. Özləri və əsərləri barədə məlumat göndərmələri xahiş olunurdu. Komitədən ikinci məktub gələndən sonra «Bakinski raboçi» qəzetinin iki sayında Alfred Nobelin əleyhinə irihəcmli məqalə dərc edildi. Həmin il – 1978-ci ildə tibb və fiziologiya sahəsində nəzərdə tutulan mükafat heç kimə verilimədi. Beləcə, Azərbaycan alimlərinin timsalında bizə yetişəcək dünya şöhrətli Nobel mükafatının verilməsinin qarşısı alındı.

Atam yenə sınmadı. Onun güclü iradəsi, zəngin mənəvi aləmi var idi. O, deyirdi: «Təbabət və musiqi bir-biri ilə qırılmaz tellərlə bağlıdır və bir zaman gələcək, bir çox dərmanları musiqi ilə əvəz edib, insanları müalicə edəcəklər».

Məclislərin birində bəstəkar Üzeyir Hacıbəyov deyib:

– Əgər təbabəti musiqi kimi səsləndirmək mümkün olsaydı, bizim Mustafa bəy təbabət musiqisinin ən böyük bəstəkarlarından biri olardı.

Akademik Heydər Hüseynov ona etiraz edib:

– Təbabətin filosofu adı Mustafa bəyə daha çox yaraşır.

Üzeyir bəy cavab verib:

– Məncə, təkliflərimizi birləşdirsək, bizim doktorumuz narazı qalmaz. Qoy Mustafa bəy «təbabətin filosofu və bəstəkarı» olsun.

Valideynlərimizin, xüsusilə də atamın təbabətə və musiqiyə sevgisi, deyəsən, qeyri-ixtiyari biz övladlarının sənət seçiminə həlledici təsir göstərdi. Mən həkim, bacım musiqiçi oldu. Qardaşımız İbrahim bəy isə həm istedadlı

həkim idi, həm də neçə-neçə unudulmaz mahnıların müəllifi oldu. İbrahim bəyin ömür payı az oldu. Qırx beş il yaşadı. O da insanları vaxtsız ayrılıqlardan, erkən ölümlərdən xilas etmək istəyirdi. Ancaq…

1969-cu ildə o, ürək xəstəliyindən vəfat etdi. Atam təkcə yeganə oğlunu yox, həm də tələbəsini, həmkarını itirdi. Şəkər xəstəliyindən əziyyət çəkən anamın vəziyyəti ağır idi. Ondan İbrahim bəyin dünyasını dəyişdiyini gizlətmək istədik. Ancaq həssas ana qəlbini aldatmaq olardı? İbrahim bəyin 7-sini verdik. Səhəri gün anam dünyadan köçdü. Həmişə düşünürəm, o, İbrahim bəysiz yaşaya bilməzdi.

Atama onlarsız çox ağır oldu. Düzdür, yenə içinə qapanar, dərdləri ilə beləcə baş-başa qalardı. Nə etsək də, faydasız idi. Sanki o, həyatının hər anında yenə anamla, qardaşımla birlikdəydi. Bir də özünü sənəti ilə, istəkli nəvələri ilə ovudurdu.

Mustafa bəy həyatının son gününə – 1981-ci ilin 22 noyabrınadək də belə yaşadı...

***

Akademik Mustafa Topçubaşov qeyri-adi fitri istedada malik peşəkar həkim, cərrah, təbabət elminin sirlərini mükəmməl bilən, gözəl elm təşkilatçısı və kadr hazırlığında mühüm xidmətləri olan görkəmli şəxsiyyət, ictimai-siyasi xadim kimi qəbul olunur. Mustafa Topçubaşovun yaratdığı elmi məktəb Azərbaycanda mövcud olmuş digər elmi məktəblərlə müqayisədə yetirmələrinin cərrahiyyə-

nin təməl biliklərinə mükəmməl bələd olmaları, təbabət elmində mühüm yeniliklərə imza atmaları ilə fərqlənir.

Mustafa Topçubaşovun Elmlər Akademiyasının təsisçilərindən biri olması və həqiqi üzv seçilməsi təsadüfi olmamışdır. Bu elm məbədinin tarixində akademikin xüsusi xidmətləri olmuşdur.

Azərbaycanda müstəqil elmi-təşkilati qurumun yaradılması işinə XX əsrin əvvəllərində, daha dəqiq desək, 1923-cü ildə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin təşkili ilə başlanmışdır. Bu təşkilatın fəaliyyəti ölkədə elmi-tədqiqat işlərini istiqamətləndirmək, ekspedisiyalar təşkil etmək, müzakirələr keçirmək baxımından ilk böyük addımlar olsa da, sistemli və fundamental tədqiqatların aparılmasına və tətbiqinə geniş imkan verə bilməmişdir. Bunun ardınca 1929-cu ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin nəzdində yaradılmış Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu Tədqiq və Tətəbbö Cəmiyyətinin funksiyalarından bir qədər irəli getmiş, lakin institutun əsas istiqaməti siyasi və iqtisadi vəzifələrin, tədris-metodiki işlərin həllinə yönəldildiyi üçün ölkə üzrə elm sahəsində xüsusi bir canlanma yaratmaq mümkün olmamışdır. Bununla belə, Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti, habelə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu respublikada elmi fəaliyyətlə məşğul olan yaradıcı qüvvələri bir yerdə cəmləşdirmək, onların elmi fəaliyyətlərini müəyyən olunmuş istiqamətlər üzrə əlaqələndirmək baxımından bir çox faydalı addımlar atmaqla gələcək Akademiya üçün müəyyən zəmin hazırlamışdır. Bu mənada 29 dekabr

1932-ci ildə yaradılmış SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi respublikada o vaxta qədər mövcud olmuş elmi bazanın əsasında təşkil olunduğu üçün səmərəli şəkildə fəaliyyətə başlamışdır. İttifaq Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan Şöbəsində yaradılmış sektorlar konkret olaraq ayrı-ayrı ixtisaslar üzrə elmi araşdırmaların aparılması işlərini təşkil etmiş, buna görə də az sonra Akademiyanın tərkibində müstəqil elmi-tədqiqat institutlarına çevrilə bilmişdilər.

